www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 oktyabr 2025-ci il Cümə axşamı № 177 (8787) Qiyməti 60 qəpik

## Xəbər

### Hotel qiymətinə xəstəxanalar - tibbi sığorta niyə işləmir?

yazısı səh.13-də

## Gündəm

### İrəvandan Bakıya sərsəm iddia - Qriqoryan da o səhvi etdi



Erməni rəsmilər "Zəngəzur dəhlizi" ifadəsindən niyə narahatdır?

yazısı səh.9-da

### Azərbaycan-İtaliya strateji tərəfdaşlığında yeni mərhələ

yazısı səh.3-də

### Putin əsgərlərini Güney Qafqazdan çıxarmayacaq - şok hədə

yazısı səh.8-də

### Ermənistan rəhbərliyi 8 avqust razılaşmalarını pozmaq istəyir?

yazısı səh.6-da

### Zelenskidən gözlənilən qərar - müharibə yeni mərhələyə keçir

yazısı səh.12-də

### Avtobuslarda 60 qəpik fırıldağı: "Maşınkam işləmir deyə, qiymət tablosu yazmamışam..."- reportaj

yazısı səh.13-də

### Medvedyev yenə Trampa sataşdı

yazısı səh.12-də

### Kompüter oyununa görə bir ailə məhv edildi - şok olayın tək dərsi

yazısı səh.15-də

### Uşaqlarda xroniki yorğunluğun ilginc səbəbləri - valideynlər oxusun

yazısı səh.11-də

### Bakıda pilot layihə - dünya məktəbli avtobusu problemini necə həll edib?

yazısı səh.11-də

# BAKI-MOSKVA MÜNASİBƏTLƏRİNDƏ GƏLİNƏN NÖQTƏ - 3 AY SONRA...

Rusiya Azərbaycanın əsas tələbi ilə bağlı hələ də tərəddüd içindədir; təhlilçilərə görə, üzrxahlıq olmadan münasibətlər düzəlməyəcək...



yazısı səh.5-də

## Dönər problemi dönə-dönə aktuallaşır - standartlara laqeydliyin ilginc səbəbləri

Ölkədə son 5 ilin şikayət palitrasındakı mağazalar şəbəkəsinin adları; mütəxəssislər istehlakçılara çağırış etdi

yazısı səh.14-də



### Adnan işinə görə çətinə düşən uşaqlar - təklif

yazısı səh.15-də



Fərhad Əhmədov

### Fransızlar milyarder Əhmədova necə kələk gəliblər

yazısı səh.7-də



Rövşən Məhərrəmov

*Hərbi ekspert:*

### "Türkiyə kimi dövlətin xaricdən bu asılılığı olmamalıdır"

yazısı səh.5-də

# SOS! Azərbaycanın şirin su ehtiyatları azalıb



Son 40-45 ildə Azərbaycanın şirin su ehtiyatları 25% azalıb. Modern.az xəbər verir ki, bunu Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov "Bakı İqlim Fəaliyyəti Həftəsi"nin (BCAW2025) üçüncü günündə bildirib.

Onun sözlərinə görə, 1980-ci illərdən bəri Xəzər dənizinin səviyyəsi iki metrə yaxın aşağı düşüb, Kür çayının suyu isə oxşar həcmdə azalıb. Bunlar bölgəmizdə iqlim dəyişikliyinin canlı sübutlarıdır. Su ehtiyatlarının azalması fonunda içməli su və suvarma şəbəkələrində itkilər hələ də yüksəkdir, əhalinin yalnız üçdə biri müasir tullantı su xidmətlərinə çıxış əldə edir".



## "Qanun" nəşriyyatına Bakıdakı sərgidə yer verildi

**"Qanun" nəşriyyatının və "Əli və Nino" satış şəbəkəsinin XI Bakı Beynəlxalq Kitab Sərgisindəki fəaliyyəti bərpa olunub. Bu barədə Musavat.com-a nəşriyyatın direktoru Şahbaz Xuduoğlu məlumat verib. Onun sözlərinə görə, təşkilatçılarla ortaq məxrəcə gəlinib və satış üçün yerlər ayrılıb: "Arzuladığımız kimi olmasa da, bizim üçün yerlər ayrıldı və fəaliyyətimizi davam etdiririk. Nəşriyyata ayrılan yerdən "Əli və Nino"ya da yer ayırdıq ki, satışı həyata keçirə bilsinlər. Sərgi pozulmasın deyə həm biz yerimizdən qənaət etdik, həm də qonşu stenddən yer götürdük. Bu, ürəkaçan deyil, amma çoxlu tədbirlərimiz nəzərdə tutulub, yazıçıların imza günü var, xaricdən yazıçı dəvət etmişik. İstəmədik ki, bütün bunlar pozulsun".**

Qeyd edək ki, bundan öncə Ş.Xuduoğlu sayta açıqlamasında bildirmişdi ki, "Qanun" nəşriyyatı və "Əli və Nino" kitab şəbəkəsi bu gün (dünən - red.) açılışı keçirilən XI Bakı Beynəlxalq Kitab Sərgisində iştirak etməyəcək. O, təşkilatçıların sərgi salonunda həm nəşriyyata, həm də "Əli və Nino" satış şəbəkəsinə satış yeri ayırmadığını və buna görə də iştirak edə bilmədiklərini demişdi.

❑ **Şahanə RƏHİMLİ,**
**Musavat.com**

## Xankəndinə iş üçün getdi, həbs olundu

**Xankəndi şəhərinə iş axtarmağa gedən şəxs həbs edilib. Oxu.az xəbər verir ki, Laçın rayon sakini, 2002-ci il təvəllüdlü Azər Quliyev iş axtarmaq üçün xalası oğlu ilə birlikdə Xankəndiyə gedib.**

Onlar bir neçə gün şəhər ərazisində iş axtarsalar da, onlara uyğun iş olmayıb. Çarəsiz qalan A.Quliyev başqa üsula əl atıb. Belə ki, o, xalası oğlu ilə birlikdə restoranlardan birində nahar edərək, spirtli içki içib. Daha sonra Azər səliqəli geyinərək, Xankəndi şəhərindəki bir neçə ticarət və iaşə obyektinə daxil olaraq, guya Dövlət Vergi Xidmətinin əməkdaşı olduğunu deyib və sahibkarlardan pul tələb edib. Obyektlərdən birinə daxil olub pul tələb edərkən, sahibkar polis əməkdaşlarına məlumat verib.

Hadisə yerinə polis əməkdaşlarının gəldiyini görən A.Quliyev ərazidən qaçmaq istəyib. O, həmin vaxt sərxoş olduğundan qaçarkən küçədə yıxılıb, xəsarət alıb.

Polis əməkdaşları onu saxlayaraq barəsində protokol tərtib ediblər. Protokol məhkəməyə göndərilib. Xankəndi Şəhər Məhkəməsinin qərarı ilə A.Quliyev 10 sutka həbs edilib.

## Yağış, dolu, qar yağacaq

**Bakıda və Abşeron yarımadasında oktyabrın 2-də hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, lakin səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var, şimal-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 14-16° isti, gündüz 18-21° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75%, gündüz 55-65% olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 13-16° isti, gündüz 17-21° isti, dağlarda gecə 4-8° isti, gündüz 10-15° isti olacaq.

## Sürücülük hüququ olmayanlar cərimələndi

**Sərnişindaşıma sahəsində təhlükəsizliyin təmin olunması və bu istiqamətdə qanunvericiliyin tələblərinə əməl olunmasına nəzarətin gücləndirilməsi məqsədilə Zərdabda polis əməkdaşları tərəfindən profilaktik tədbir keçirilib.**

Modern.az xəbər verir ki, tədbir zamanı sərnişindaşıma fəaliyyəti göstərən avtobus və mikroavtobusların texniki vəziyyəti, normadan artıq sayda oturacaqların quraşdırılması halları, sürücülərin müvafiq kateqoriyalı nəqliyyat vasitələrini idarə etmək hüququnun olub-olmaması, onların tibbi müayinədən keçməsi və digər normativ tələblərə riayət edilib-edilməməsi yoxlanılıb.

Sürücülərlə profilaktik söhbətlər aparılıb, hərəkətin təhlükəsizliyinin təmin olunması ilə bağlı maarifləndirici tövsiyələr verilib. Qayda pozuntusuna yol verən və müvafiq kateqoriyalı avtonəqliyyat vasitələrini idarə etmək hüququ olmayan sürücülər inzibati məsuliyyətə cəlb olunublar. Hüquq pozuntularının qarşısının alınması məqsədilə təhlükəsizlik tədbirləri davam etdirilir.

## Xəzərin sahilində AES tikiləcək



**Qazaxıstan daha üç ədəd AES tikmək niyyətindədir. Modern.az xəbər verir ki, bu barədə Atom Enerjisi Agentliyinin sədri Əlmasadam Satkaliyev bildirib. Onun sözlərinə görə, iki AES Almatı vilayətində, daha biri isə Qərbi Qazaxıstanda, Xəzər dənizinin sahilində tikilə bilər: "Atom Sənayesinin İnkişafı üzrə Dövlət Komissiyasının iclasında Atom Elektrik Stansiyasının tikintisi üçün ikinci sahə kimi Almatı vilayətinin Jambil rayonu müəyyən edilib.**

Biz tenderin bütün iştirakçıları ilə danışıqlar aparırıq. Yekun qərar verilməyib. Biz həmişə demişik ki, çin şirkətinə üstünlük verəcəyik. Amma hələlik heç bir qərar verilməyib.

Qərbi Qazaxıstan Xəzər sahili kiçik və orta gücə malik reaktorlara malik atom elektrik stansiyasının tikintisi üçün potensial yer kimi nəzərdən keçirilir. Lakin yer hələ dəqiq müəyyən edilməyib. Yaxın vaxtlarda araşdırma aparılacaq".

## "Sabah" cərimələndi

**AFFA İntizam Komitəsi "Sabah" klubunu 11700 manat cərimələyib. "Unikal" xəbər verir ki, buna Misli Premyer Liqasının VI turunda "Sumqayıt"la matçda yaşananlar səbəb olub.**

Oyunun gedişində işıq söndüyünə görə matç 20 dəqiqə gecikdiyi üçün "Sabah" klubu 1000 manat cərimə olunub.

Bakı klubu dörd futbolçu sarı vərəqə aldığından əlavə 700 manat ödəməli olacaq. 90+4-cü dəqiqədə "Sabah"ın məşqçisi Castinas Qasiunas hakimi təhqir etdiyinə görə birbaşa qırmızı vərəqə aldığı üçün 4 oyun cəzalanıb, klub 10000 manat ziyana düşüb.




## Azərbaycanda 3000 yazıçı var

**"Azərbaycanda 3000 yazıçı var". Modern.az-ın məlumatına görə, bu sözləri Azərbaycan Yazıçılar Birliyinin birinci katibi Çingiz Abdullayev XI Bakı Beynəlxalq Kitab Sərgisinin açılış mərasimində deyib.**

"Biz inanırıq ki, növbəti mərhələdə bu müəlliflər yazdıqlarına görə qonorar alacaqlar", - o qeyd edib. Xalq yazıçısı kitab sənayesinin problemlərinə toxunub. "Bu gün bizim yazıçılarımız çox təəssüf ki, öz pulları ilə kitab çap edirlər. Dünyada belə şey yoxdur. Amma zaman gələcək ki, belə olmayacaq, biz dünya standartları ilə uyğunlaşacağıq".

## Qırğızıstanda ölüm hökmü bərpa olunur

**Qırğızıstan Prezidenti Sadır Japarov uşaqlara və qadınlara qarşı xüsusilə ağır cinayətlərə görə ölüm cəzasının bərpası ilə bağlı qanun layihəsinin hazırlanmasını tapşırıb.**

APA xəbər verir ki, bu barədə Qırğızıstan liderinin mətbuat katibi Asqat Alagözov bildirib.

O, yetkinlik yaşına çatmayan Aysuluu adlı qızın xüsusi amansızlıqla öldürülməsi ilə bağlı işin prezident Sadır Japarovun şəxsi nəzarəti altında olduğunu qeyd edib.

Onun sözlərinə görə, dövlət başçısı bu cinayət barədə şoka salan mesajı dərin təəssüf hissi ilə qəbul edib.

## Şuşada 10 bina tikiləcək

**Şuşa şəhərində D-3 yaşayış massivində nəzərdə tutulan yaşayış binalarının (1-ci mərhələ 10 ədəd bina) tikinti işlərini həyata keçirəcək şirkət müəyyənləşib.**

Modern.az xəbər verir ki, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi tikinti işlərinin icrası ilə bağlı "GM Construction" şirkəti ilə nəhəng müqavilə bağlayıb.

Müqaviləyə əsasən, massiv üzrə ilk mərhələdə 10 ədəd binanın tikintisi 39.7 milyon manata başa gələcək.



# Azərbaycan-İtaliya strateji tərəfdaşlığı yeni mərhələdə: Mattarellanın Bakı səfərində nələr yaşandı?

**Sentyabrın 30-da Azərbaycana rəsmi səfərə gələn İtaliya Prezidenti Sercio Mattarella oktyabrın 1-də səfərini başa vurub. Xatırladaq ki, iki günlük səfər çərçivəsində Azərbaycan və İtaliya prezidentləri arasında təkbətək görüş keçirilib, daha sonra nümayəndə heyətlərinin iştirakı ilə danışıqlar aparılıb və mətbuata birgə bəyanatlar verilib.**

Prezident İlham Əliyev bəyanatında qeyd edib ki, İtaliya iqtisadi sahədə Azərbaycanın birinci ticarət tərəfdaşıdır və hər il iki ölkə arasında ticarət dövriyyəsi sürətlə artır. Dövlət başçısı enerji sektorunda həyata keçirilən birgə layihələrin xüsusi əhəmiyyətini vurğulayıb:

"Xüsusilə Azərbaycan neftini və qazını İtaliyaya ixrac etməklə biz dünya bazarlarına geniş həcmdə öz təbii resurslarımızı göndərə bilmişik. 2020-ci ildən başlayaraq TAP layihəsi vasitəsilə İtaliyaya Azərbaycan qazı ixrac edilir. Bu gün Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan 14 ölkəyə təbii qaz ixrac edir. İldən-ilə bizim əhatə dairəmiz artır və bu gün boru kəmərləri ilə ixrac edilən təbii qazın coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir. Azərbaycan nefti İtaliyanın neft balansında birinci yerdə, Azərbaycan qazı isə ikinci yerdədir. Bu əməkdaşlıq qarşılıqlı etimada, uzun illərin səmimi münasibətlərinə əsaslanır. Əgər bu güclü tərəfdaşlıq olmasaydı, belə irimiqyaslı layihələri reallaşdırmaq mümkün olmazdı".

Öz növbəsində, Prezident Sercio Mattarella Azərbaycanın Avropa üçün strateji tərəfdaş olduğunu vurğulayıb. Onun sözlərinə görə, İtaliya bundan sonra da Azərbaycanın enerji, iqtisadiyyat, elm və mədəniyyət sahələrində Avropa İttifaqı ilə əməkdaşlığını daha da gücləndirmək üçün səy göstərəcək:

"Bizim məqsədimiz ondan ibarətdir ki, Avropa İttifaqı ilə Azərbaycanın əlaqələri davamlı şəkildə inkişaf etsin, yeni istiqamətləri əhatə etsin və hər iki tərəf üçün faydalı nəticələr versin".

Səfər çərçivəsində mühüm hadisələrdən biri də oktyabrın 1-də İtaliya-Azərbaycan Universitetinin açılışı olub. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva universitetin ilk tədris korpusunun açılışında iştirak ediblər.

**Millət vəkili Vüqar Bayramov qeyd edir ki, İtaliya Azərbaycanın vacib tərəfdaşlarından hesab olunur:** "Ötən il iki ölkə arasında ticarət dövriyyəsi 11 milyard 390 milyon dollar olub. Azərbaycan və İtaliya arasında ən böyük ticarət dövriyyəsi isə 2022-ci ildə qeydə alınıb: 18 milyard 122 milyon dollar. Bu kəskin artim Rusiya-Ukrayna müharibəsi fonunda dünya bazarında enerji resurslarının və eləcə də mavi qazın qiymətinin kəskin artması ilə bağlı idi.

2024-cü ildə Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin 24.0 faizi İtaliyanın payına düşüb. Azərbaycan xüsusən də enerji məhsullarını Avropa bazarına İtaliya vasitəsilə ixrac edir. Bu baxımdan təbii ki, Azərbaycanla Avropa İttifaqı arasındakı ticarət dövriyyəsinin əhəmiyyətli hissəsi İtaliyanın payına düşür. Cənub Qaz Dəhlizi çərçivəsində Azərbaycanın İtaliya bazarına mavi qaz nəql etməsi ticarət dövriyyəsinin həcminə birbaşa təsir göstərib. Belə ki, Azərbaycanın Avropaya qaz ixracatı 2024-cü ildə 8.6 faiz artaraq 12.9 milyard kubmetrə çatıb. İkinci mərhələdə isə bu göstərici 20 milyard kubmetr olacaq. Nəql ediləcək mavi qazın əhəmiyyətli hissəsi məhz İtaliya bazarına ixrac edilir ki, bu da təbii ki, ölkələr arasındakı iqtisadi münasibətlərin növbəti dövrdə də inkişaf edəcəyindən xəbər verir.

Dövlət başçılarının qarşılıqlı səfərləri iki ölkə arasındakı münasibətlərin daha da inkişafı baxımından və strateji əməkdaşlığın gücləndirilməsi aspektindən kifayət qədər əhəmiyyətlidir. İtaliya investisiyasının Azərbaycanın qeyri-neft sektoruna və eləcə də işğaldan azad olunan ərazilərimizə cəlb edilməsi də prioritet olaraq qalmaqdadır. O baxımdan rəsmi səfərlər iki ölkə arasındakı əməkdaşlığı daha möhkəmləndirir".

**Milli Məclisin sədr müavini Musa Qasımlı isə bildirir ki, Azərbaycan və İtaliya arasında münasibətlər bəzi Avropa dövlətləri üçün nümunədir:** "İtaliya Azərbaycanın xarici ticarətində birinci yeri tutur. 2025-ci ilin yanvar-avqust aylarında Azərbaycanın İtaliya ilə ticarət dövriyyəsinin ümumi həcmi təxminən 8 milyard dollar təşkil edib. Azərbaycan İtaliyanın enerji təhlükəsizliyində vacib rol oynayır. Azərbaycan neftinin İtaliyanın neft balansında birinci yerdə, qazının isə ikinci yerdə olması güclü tərəfdaşlığı, inam və etibarlılığı göstərir.

Əməkdaşlığın istiqamətlərindən biri təhsildir. İtaliya-Azərbaycan Universitetinin qurulması münasibətlərin gələcəyinin təminatlarından biri olmaqla, universitetlər arasında əməkdaşlığa, tədqiqatlara kömək edəcək. Tələbələr arasında dostluq ictimaiyyətin əlaqələrinə də təsir göstərəcək. Mədəniyyət sahəsində də əməkdaşlıq genişlənəcək".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Ermənilər Qarabağa buna görə qayıtmayacaq!

**Ermənistan Baş naziri Nikol Paşinyan separatçı-radikalların revanşist xülyalarına daha bir zərbə vurub. Özü də Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) tribunasından - bütün dünyaya car çəkməklə.**



Srağagün o, AŞ PA-da çıxışı zamanı ermənilərin Qarabağa qayıdışının real olmadığını, belə bir cəhdin Bakı ilə sülh prosesinə zərər vura biləcəyini söyləyib. Ardınca bildirib ki, Azərbaycan vətəndaşlığını qəbul etməyən ermənilərin gələcəyi artıq Ermənistanla bağlıdır. "Bizim soydaşlarımız burada, Ermənistan vətəndaşları kimi qalmalı, yaşamalı, yaratmalıdırlar. Bu, bizim strategiyamızdır", - Paşinyan iki il öncə Qarabağdan könüllü köç edənlərə səslənib...

Hələ ki, onun çağırışına sonuncuların reaksiyası bəlli deyil. Sakitlikdir. Ancaq susqunluq da razılıq əlamətidir. Başqa yandan, Qarabağın keçmiş erməni sakinləri etiraza qalxıb da Paşinyana hansı iradı tutacaqlar ki?

Birincisi, hamı bilir ki, onları heç kim qovub eləməyib, "etnik təmizləməyə"-zada məruz qoymayıb. Az qala, gül-çiçəklə yola salınıblar Azərbaycandan. Bunu zərrəcə haqq eləmədikləri halda. "Özü yıxılan ağlamaz". Erməni irqçi-faşistlər və onların havadarları dünyanın gözü qarşısında baş vermiş bir hadisəni nə qədər baş-ayaq təqdim eləsələr də, yeni "genosid" mifi yaratmağa çalışsalar da, alınmayıb. Alınmayacaq. Paşinyanın AŞ PA-dakı açıqlaması həm də bunun etirafı və mesajıdır.

İkincisi, separatçı kütlə Qarabağa xüsusi status və beynəlxalq zəmanət altında qayıtmağı xəyal edir. Yəni əksəriyyət Azərbaycan vətəndaşlığı altında yaşamağı, Konstitusiya və qanunlarımıza tabe olmağı ağlına gətirmir. Təbi ki, qulaqlarının dibini görəndə bunun əksini görərlər. Paşinyan da vəziyyəti yaxşı bildiyi üçün "ağrımayan başına" dəsmal bağlamaq istəmir...

Baş nazirin məlum bəyanatı əslində həm də Qarabağın heç vaxt ermənilərin dədə-baba torpağı olmadığının etirafıdır. Yoxsa belə rahat şəkildə qayıdış planlarının üstündən xətt çəkilməzdi. Axı Azərbaycan xalqı sizə 200 il öncə Qarabağın dilbər guşəsində yaşamağa yer vermişdi, hətta haqq etmədiyiniz muxtariyyətə sahib idiniz. Amma siz yaxşılığı tərs anladınız, qədir-qiymətini bilmədiniz, göylə getdiniz, başımızda oturdunuz. Sizə öz qoynunda yer eləmiş böyük və xeyirxah bir xalqa, dövlətimizə meydan oxudunuz, ağlasığmaz cinayətlər törətdiniz. Çox istədiniz, ancaq azdan da oldunuz. İndi hansı üzlə geri dönəcəksiniz ki?

Odur ki, sıra indi Qərbdəki ermənidən çox erməni olmaq istəyən, "çörəyi" xalqları bir-birinə qırdırmaqdan çıxan məkrli, insanlığını itirmiş çevrələrindir. Vicdanını 5 sentə satmış amerikalı konqresmenlərin, Avropa Parlamentinin ikiüzlü yalan ustalarınındır. Nəticə çıxarsınlar və nə qədər gec deyil, daşı ətəklərindən töküb gerçəyi dilə gətirsinlər. Kövrək sülh prosesinə, formalaşmaqda olan qarşılıqlı etimada zərbə vurmaq cəhdlərindən əl çəksinlər.

Söhbət əlbəttə, həm də fitnə-fəsad ustası Rusiyadan gedir. Məsələ ondadır ki, Paşinyan son açıqlaması ilə Kremlin nə vaxtsa Azərbaycana qarşı separatçı "kart"dan istifadə planını da sarsıtmış oldu. İrəvanın Minsk Qrupunun ləğvinə razılığından sonra bu, ümumən antitürk qüvvələrin topasına endirilən zərbə sayılmalıdır.

Qalır Nikolun dediyi o strategiyanı məntiqi sonluğa çatdırmaq: konstitusiyada müvafiq dəyişikliyi edib Bakı ilə sülh müqaviləsini imzalamaq. Bir az da tələsmək lazımdır. Çünki vaxt daralır. Nə qədər ki, Putinin başı Ukraynaya qarışıb, bu işi bitirmək gərəkdir. Bunu həmçinin Türkiyə ilə sərhədlərin açılması və qonşuluq əlaqələrinin qurulması, təcriddən qurtulmaq zərurəti tələb edir...

"Artıq Qarabağ məsələsi aradan qalxdığı üçün Ermənistanla Türkiyə arasında daha sıx əlaqələr formalaşmağa başlayacaq".

Türkiyədəki ermənilərin patriarxı Saak Məşəlyan bu fikirdədir (Teleqraf).

"Türkiyədəki ermənilər həmişə Ermənistan-Türkiyə münasibətlərinin normallaşmasının tərəfdarı olublar, amma iki ölkə arasındakı münasibətlərə uzunmüddətli perspektivdə baxmaq lazımdır, çünki söhbət 100 illik düşmənçilikdən gedir. Hətta bu durumda sülhdən, gəliş-gedişdən, qapıların, yolların, sərhədlərin açılmasından, diplomatik münasibətlərin bərpasından danışmaq belə böyük uğurdur. O vaxt Qarabağla bağlı məsələ vardı, indi o məsələlər aradan qalxdıqdan sonra o maneələr aradan qalxmağa və daha sıx əlaqələr formalaşmağa başlayacaq", - keşiş bildirib.

O, sülhə alternativin olmadığını vurğulayıb: "Məncə, proses düzgün istiqamətdə gedir. Biz həmişə Türkiyə ilə Ermənistan arasında münasibətlərin inkişafının tərəfdarı olmuşuq, çünki bizim erməni dünyasında, belə demək mümkünsə, xüsusi yerimiz var. Biz nə Qarabağ, nə də diaspor erməniləriyik. Alternativ yoxdur, sülh olarsa, hər iki tərəf qalib gəlir, düşmənçilik olarsa, hər iki tərəf uduzur. Bəzən keçmişi unutmaq lazımdır. Addımlarımızı yeni şərtlərə uyğun atmalıyıq. Keçmiş üçün yaşaya bilmərik".

Erməni olsa da, düz deyir...

❑ **Zahid SƏFƏROĞLU**

## Ermənistanda seçicilər “avropapərəst” və “rusiyapərəst”lərə bölünəcəkmi?


Aleksandr İskəndəryan

**2025-ci ildə Moldovada keçirilən parlament seçkiləri ölkə daxilində və xaricdə böyük maraq doğurdu. Prezident Maya Sandunun rəhbərlik etdiyi hakim “Fəaliyyət və həmrəylik” Partiyası səslərin 50 faizindən çoxunu toplayaraq hökuməti təkbaşına formalaşdırmaq imkanı əldə etdi.**

Musavat.com erməni mediasına istinadla xəbər verir ki, Moldovadakı seçkilər yerli ekspertlər tərəfindən müxtəlif aspektlərdə dəyərləndirilib. Çünki gələn il Ermənistanda da parlament seçkiləri keçiriləcək.

**Yerli politoloq Aleksandr İskəndəryan** seçkilərin nəticəsinə ciddi təsir göstərən amillərdən birinin Avropada yaşayan moldovan diasporası olduğunu bildirib. Onun sözlərinə görə, Moldova seçkilərində Avropada təxminən 300 seçki məntəqəsi açılıb, onlardan 70-dən çoxu İtaliyada olub, Rusiyada isə cəmi iki məntəqə fəaliyyət göstərib.

İskəndəryan paralel aparaaraq vurğulayıb ki, Ermənistanda vəziyyət fərqlidir - erməni diasporası seçkilərdə iştirak etmir, buna görə də onun təsir mexanizmi minimaldır. Bundan başqa, Ermənistanda Moldovadakı kimi etnik və dini zəmində parçalanma yoxdur. “Ermənistanda Qaqauziya və ya Dnestryanı kimi fərqli etnoslara əsaslanan seçici kütlələri mövcud deyil”, - deyə o bildirib.

Erməni ekspert hesab edir ki, Ermənistanda parçalanma daha çox ideoloji xarakter daşıyır. Hakimiyyət özünü avropayönlü kimi təqdim edir, müxalifət isə Moskva ilə strateji əlaqələrin möhkəmləndirilməsindən yanadır. Bununla belə, hər iki ölkədə seçkilər “sivilizasiya seçimi” kimi təqdim olunur. “Ermənistanda hər bir seçki apokalipsis kimi qəbul olunur - sivilizasiya yolunu seçmək: ya məhv olmaq, ya da sağ qalmaq”, - deyə o bildirib.

Moldova təcrübəsinin Ermənistan üçün əsas dərsi konsolidasiyadır. Moldovada hakim partiya parçalanmış müxalifətə baxmayaraq öz elektoratını birləşdirə bildi. Əlavə olaraq, sosial şəbəkələrin rolu diqqətçəkən oldu: TikTok-un imkanlarından istifadə edən bir partiya məhz bu yolla parlamentə düşə bildi. Ermənistan üçün də bu, siyasi mübarizədə müasir medianın əhəmiyyətini göstərir.

**İskəndəryan Ermənistanda “avropapərəst” və “rusiyapərəst” etiketlərinə skeptik yanaşıb:** “Bu, əslində Avropa ilə bağlı deyil, daxili siyasi diskursdur. Hazırda Ermənistan üçün Avropa perspektivləri yoxdur. Rusiyanın vəziyyətini nəzərə alsaq, onların da başqa qayğıları var”.

❑ **“Yeni Müsavat”**


Armen Aşotyan

## Aşotyan Paşinyanı təhqir etdi: “Siz ucuz, boş və acınacaqlısınız”

**Ermənistan Respublikası Partiyasının (RPA) sədr (Serj Sərkisyandır-red.) müavini, revanşist siyasətçi Armen Aşotyan Strasburqda baş nazir Nikol Paşinyanı və onun komandasını sərt ifadələrlə hədəfə alıb.**

Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bu barədə o, sosial şəbəkələrdə yayımladığı paylaşımında məlumat yayıb.

Aşotyanın sözlərinə görə, hakim “Vətəndaş sazişi” fraksiyasının nümayəndəsi Serj Sərkisyanın partiyasına və şəxsən onun ünvanına istehza ilə çıxış edib. Buna cavab olaraq o, Paşinyana müraciətlə bildirib: “Bir nəfər partiya tribunasında mənimlə bağlı ironiyaya yol verdi. Nikol, anla ki, nə sən, nə komandan, nə də sizin siyasi mədəniyyətiniz minimal siyasi diskurs səviyyəsini belə saxlamağa qadir deyil. Siz - ucuz, boş və acınacaqlısınız”.

Aşotyan həmçinin 2015-ci il hadisələrini xatırladaraq vurğulayıb ki, həmin dövrdə “məğlubiyyət aləti” elə Paşinyanın özü olub. O, yerli hakimiyyətin siyasətini “xalqı alçaldan xətt” adlandırıb.

Revanşist mövqeyi ilə tanınan Aşotyan paylaşımının sonunda Paşinyana xəbərdarlıq edərək, səfərdən qayıtdıqdan sonra məsələni davam etdirəcəyini bildirib.

❑ **“Yeni Müsavat”**

**Moldova Rusiyanın növbəti böyük təxribatını uğurla neytrallaşdıra bildi. Moskvaya bağlı qüvvələr ötən bazar keçirilən seçkilərdə böyük fərqlə hakim partiyaya uduzdu. Kremlin araqarışdıranlarına, onun ölkədəki “5-ci kolonu”na layiqli yerləri göstərildi.**

# Paşinyanın seçki əminliyi - son “döyüşü” uduzsa, Bakı ilə...

## Seçicilərə, yoxsa Qərbin dəstəyinə əminlik?


Qulamhüseyn Əlibəyli

Bəllidir ki, Ermənistanda da kritik parlament seçkiləri gözlənilir (iyun, 2026). Bu, erkən də baş verə bilər. O da məlumdur ki, Ermənistanda Moldovadakı kimi rus hərbi bazaları mövcuddur. Bir fərqlə: əgər Moldovada onlar separatçı Dnestryanı bölgədə və qanunsuz yerləşibsə, kapitulyant ölkədə legitimliyə sahibdir. Belə ki, bazalar iki ölkə arasında strateji tərəfdaşlıq müqaviləsinə uyğun surətdə Gümrüdə və Erebunidə (hava qüvvələri) yerləşib. Özü də uzun müddətə. Üstəgəl, Türkiyə və İranla sərhədləri hələ də Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) qüvvələri qoruyur.

Qarşıdakı seçkilər erməni xalqı və hakim partiyanın taleyi ilə yanaşı, xeyli dərəcədə Rusiyanın bölgədə qalıb-qalmayacağı məsələsinə də aydınlıq gətirəcək. Bəs Nikol Paşinyan hökuməti də seçki sınağından üzü ağ çıxa, öz mövqeyini qoruyub saxlaya, 50 + (yaxud konstitusion çoxluq) qədər seçici səsi toplaya biləcəkmi? Nəhayət, hakim partiya ya zəlzələdən, ya vəlvələdən uduzarsa, Azərbaycanla sülh müqaviləsinin aqibəti necə olacaq, yeni müharibə nə dərəcədə qaçılmaza çevriləcək?

Qeyd edək ki, baş nazir Nikol Paşinyan son açıqlamalarının birində deyib ki, növbəti parlament seçkilərində xalq Ermənistanı idarə etmək üçün hakim partiyaya verdiyi mandatı uzadacaq. O, əminliyini belə ifadə edib: “Çünki bizim həyata keçirdiyimiz sülh gündəliyinin və siyasətin müəllifi xalqdır”. Nikolun əminliyi nə dərəcə yüz faizlidir?

Siyasi şərhçi Qulamhüseyn Əlibəyli “Yeni Müsavat”a bildirdi ki, bütövlükdə **istər Moldovada keçirilən seçkilər, istər gələn il Ermənistanda keçiriləcək seçkilər əslində Rusiya ilə Qərbin savaşının nisbətən mədəni formasıdır:** “Bunu soyuq müharibə də adlandırmaq olar. Rusiya Moldovada iki dəfə cəhd edib. Bundan əvvəl prezident seçkisində dəstəklədiyi namizəd var idi. Lakin həmin namizəd qalib gələ bilmədi. O cümlədən parlament seçkilərində də Rusiyanın müdafiə etdiyi qüvvə uduzdu. Güman etmirəm ki, Moldovadakı seçkilərlə Ermənistandakı keçiriləcək seçkilər arasında oxşarlıq ancaq rusiyameylli qüvvələrlə Qərbə yaxın qüvvələrin savaşıdır. Daxildə hər hansı problemin olması bu seçkilərə o qədər də ciddi təsir göstərmir. Güman edirəm ki, gələn ilin iyunu nunda keçiriləcək parlament seçkilərində Ermənistanda da rusiyayönümlü qüvvələr qalib gələ bilməyəcək. Onlar hətta Ermənistan Azərbaycanla 44 günlük müharibədə məğlub olandan az sonra keçirilən seçkilərdə Paşinyana məğlub oldular. Hətta o zaman Paşinyanın partiyası seçkidə hökuməti təkbaşına qurmaq səviyyəsində səs üstünlüyü qazanmışdı. Düzdür, o zamandan beş ilə yaxın vaxt keçir və ölkə daxilində nараzı qüvvələr var, xüsusən də Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşmasını istəməyən qüvvələr mövcuddur, amma bu vəziyyətdə də onların xalq arasında nüfuzu çox da yüksək deyil”.

**Q.Əlibəyli dedi ki, narazı qüvvələrin heç də hamısı Rusiyaya bağlı qüvvələr deyil. Qərbə meylli qüvvələr arasında da Nikol Paşinyana müxalif mövqedə olanlar var:** “Lakin həmin qüvvələr də Ermənistanın Azərbaycanla və Türkiyə ilə münasibətlərinin normallaşmasının, sülh müqaviləsinin imzalanmasını istəmirlər. Bir neçə il öncə Ermənistanda bir rəy sorğusu keçirilmişdi. Rəy sorğusunun elan olunan nəticələrinə görə əhalinin cəmi 3 faizi Azərbaycanla sülh müqaviləsinin imzalanmasına, Türkiyə ilə münasibətlərin normallaşmasına tərəfdardır. Üç faiz cüzi rəqəmdir. Ancaq ola bilsin ki, son vaxtlar bu rəqəm bir qədər artıb. Ermənistanda normal düşünən insanlar var. Cəmiyyət ümumən nə qədər xəstə olsa da başa düşənlər var ki, Ermənistanın vəziyyətinin necə olması Azərbaycandan və Türkiyədən daha çox asılıdır, Rusiyaya arxayın olmaq mümkün deyil. Maraqlıdır ki, cəmiyyətdə qeyd etdiyim vəziyyət mövcud olsa da, Azərbaycanla sülh müqaviləsini imzalamağın və Türkiyə ilə münasibətləri normallaşdırmağın tərəfdarı olan Nikol Paşinyanın nüfuzu bu prosesə qarşı olan qüvvələrin nüfuzundan yüksəkdir. Bunun isə kökündə, məncə, bu fakt dayanır ki, sülh müqaviləsinə qarşı olan qüvvələrin çoxu, xüsusən də revanşistlər uzun illər Ermənistanda hakimiyyətdə olmuş və korrupsiyaya bulaşmış, demokratiyaya qənim kəsilmiş qüvvələrdir və xalq onları qəbul etmir. Nikol Paşinyanın bu mənada bəxti gətirib və onun seçkidə qalib gələcəyinə əminliyində bu amilin xeyli təsiri var. Əmin olmasını şərtləndirən ikinci məqam Paşinyanın 8 avqustda Vaşintonda ABŞ Prezidenti Donald Tramla imzaladığı sənədi qeyd etmək olar. Paşinyan bununla Rusiyanı itirsə də ABŞ-nin yüz faiz dəstəyini qazanmış oldu. ABŞ onun hakimiyyətdə qalması üçün lazım olan dəstəyi verəcək”.

**Ekspertin sözlərinə görə, Paşinyan hələ ki Azərbaycanla sülh sazişini də məhz seçkilərə görə imzalamır:** “O, sülh sazişini imzalamağın seçkilərdə seçicilərin səs verməsinə necə təsir edəcəyinə tam əmin deyil. Hesab edir ki, sülh sazişini imzalamaqla, konstitusiyadan Azərbaycana qarşı ərazi iddiasını çıxarmaqla seçkidə uduzmasına təsir göstərəcək səviyyədə seçici səsini itirmək riski var. Paşinyan erməni cəmiyyətinin hələ də ağıllanmadığını bildiyi üçün riskə getmir. Bu addımların atılmasını seçkilərdən sonraya saxlayır. Hətta mümkündür ki, Paşinyan seçki ərəfəsində anti-Azərbaycan ritorikasını cəmiyyətdən səs almaq üçün artıra bilər”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# Bakı-Moskva münasibətlərində gəlinən nöqtə - 3 ay sonra...

## Rusiya hələ də Azərbaycanın tələblərini yerinə yetirməyib; ekspertlər hesab edir ki, üzrxahlıq olmadan münasibətlər düzəlməyəcək...

**Üç ay sonra Azərbaycan təyyarəsinin Rusiya səmasında vurulmasının 1 ili tamam olacaq. Bakı-Moskva münasibətlərini korlayan və gərginliyə səbəb olan hadisənin istintaqı dekabrda yekunlaşmalıdır.**

Rusiya istintaqın yekunlaşmasını gözləməyə çağırır. Azərbaycan isə "qara qutu"nun açıldığını bildirir, sübutların ortada olduğunu göstərir. Prezident İlham Əliyev xarici televiziyaya müsahibəsində bu məsələyə toxunaraq bildirmişdi ki, vurulan təyyarəmizlə bağlı tələblərimiz qalır, Rusiya üzərinə düşəni yerinə yetirməsə, beynəlxalq məhkəməyə müraciət olunacaq.

Rusiya tərəfi törədilən cinayətə görə üzrxahlıq etmək yerinə, daha da irəli gedərək soydaşlarımızı həbs və deportasiya edir, kiberhücumlardan tutmuş media resurslarında ölkəmizə qarşı qarayaxma kampaniyası aparır. Bu, azmış kimi, Ukraynadakı yanacaq obyektlərimizə, qaz kəmərinə raket zərbələri endirib.

Son bir ay isə nisbi sakitliklə keçib və gərginliyin tempi artmayıb. Gəncədə MDB oyunları təşkil olunub, Rusiyanın sərhəd gəmisi Bakıya gəlib, idman nazirinin müavini Xankəndidə keçirilən oyuna tamaşa edib.

Baş prokuror Kamran Əliyev jurnalistlərə açıqlamasında deyib ki, hazırda ötən ilin dekabr ayında AZAL təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə bağlı cinayət işinin istintaqı Rusiya, Qazaxıstan və Azərbaycan tərəfindən aparılır.

İndi vəziyyət necə görünür, gəldiyimiz nöqtə hansıdır?

Azərbaycanla Rusiya arasında münasibətlər nə dərəcədə uzun müddətə korlanıb? Onların bərpası necə və nə vaxt mümkün ola bilər? Bakıdan asılı olan nə isə qalıbmı?

**Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədr müavini Günay Ağamalı** "Yeni Müsavat"da qeyd etdi ki, Azərbaycanla Rusiya arasındakı münasibətlərdə son dövrlərdə yaşanan gərginlik ikitərəfli əlaqələrlə yanaşı, təəssüf ki, regionda təhlükəsizlik və sabitlik mühitinə də mənfi təsir göstərir: "Bakı üçün Moskva ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək daima xüsusi əhəmiyyət kəsb edib. Lakin Rusiyanın hər kəsə məlum olan addımları ikitərəfli münasibətlərə ciddi zərbə vurdu. Azərbaycan tərəfinin mövqeyi birmənalıdır və dəyişməz olaraq qalır: törədilən cinayətin obyektiv istintaqı, məsul şəxslərin cəzalandırılması və kompensasiyanın ödənilməsi zəruratdir. Bu, beynəlxalq hüququn da tələbidir. Əgər Rusiya bu istiqamətdə öhdəliklərini yerinə yetirməsə, Azərbaycan beynəlxalq məhkəmələrə müraciət etmək hüququnu özündə saxlayır. Bununla yanaşı, Azərbaycan hər zaman dialoqa və diplomatik həll yollarına üstünlük verib. Son zamanlar müşahidə olunan nisbi sakitlik, beynəlxalq tədbirlər çərçivəsində baş verən təmaslar göstərir ki, qarşılıqlı anlaşma üçün hələ də imkanlar var. Lakin bu münasibətlərin bərpası birmənalı olaraq Kreml rəhbərliyinin konstruktiv addımlarından asılıdır. Rusiya rəsmiləri artıq başa düşməlidir ki, Azərbaycanla ənənəvi imperiya narrativləri fonunda davranmaq mümkün deyil. Azərbaycan xalqı və dövləti qürurludur. Biz heç vaxt ədalətsizliyə, milli maraqlarımıza qarşı yönəlmiş təzyiqlərə boyun əyməyəcəyik. Eyni zamanda münasibətlərin gələcəkdə normallaşması üçün əsas şərt Rusiyanın ədalətli və səmimi mövqeyi olmalıdır. Əgər bu yanaşma nümayiş etdirilərsə, biz konstruktiv dialoq üçün qapıları açıq saxlamağa hazırıq".



**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov Azərbaycanın hər zaman şimal qonşusu ilə sıx əməkdaşlıqda maraqlı olmasından söz açdı:** "Bakının yürütdüyü siyasətdə indiyədək heç bir sapıntı olmayıb. Azərbaycan kimsəyə də imkan verməyib ki, onun mənafelərinə və nüfuzuna xələl gətirən addımlar atsın, yaxud hörmətsizlik göstərsin. Belə cəhdlərin qarşısı qətiyyətlə alınıb və lazımi cavablar verilib. Bakı Rusiya ilə sıx əməkdaşlıqda maraqlıdır. 2022-ci ilin fevralında Moskvada imzalanmış "Strateji müttəfiqlik haqqında bəyannamə"yə sadiqdir və üzərinə götürdüyü öhdəlikləri də yerinə yetirir. Ancaq Kreml ənənəsinə "sadiq qalaraq" atdığı imzanın arxasında durmadı və gərginlik yolunu seçdi. Ötən il AZAL-a məxsus sərnişin təyyarəsinin vurulması Rusiyanın əsl simasını bir daha dünyaya nümayiş etdirdi. Bu cinayətə rəğmən Azərbaycan yenə təmkinini pozmadı və üzrxahlıq edilməsini, təyyarəni vuranların cəzalandırılmasını, dəymiş zərərin ödənilməsini tələb etdi. Kreml isə Azərbaycanın haqlı tələblərini nəinki yerinə yetirmədi, hətta Bakıya qeyri-məqbul təzyiqlərini artırmaqla hadisəni ört-basdır etmək yolunu seçdi. Rusiya hələ də üzərinə düşənləri etməkdən yayınır. Ötən ayla müqayisədə iki ölkə arasında gərginlik dramatik olmasa da, münasibətlərin ılıqlaşdığını söyləmək çətindir. Biz bunu Rusiyanın media orqanlarında bizə qarşı aparılan təbliğat kampaniyasında, o ölkədə yaşayan soydaşlarımıza qarşı yeridilən təzyiq-təqib siyasətində, müxtəlif təxribat və təhrikçilikdə aydın şəkildə görürük. Düşünürəm ki, Azərbaycanın Rusiya ilə yüksək səviyyədə olan münasibətlərini yenidən həmin səviyyəyə çatdırmaq hələlik o qədər də mümkün görünmür. Bakıda əhali arasında aparılan rəy sorğusunda da respondentlərin çox böyük hissəsi Rusiyanı dost ölkə kimi qəbul etmir. Deməli, Kremlin yanlış siyasəti xalqlar arasında da dost və etimad mühitini zədələyib. Bütün bunları isə nizama salmaq üçün Rusiya səhvlərini düzəltməli, Bakıya qarşı demarşlara , təzyiqlərə son qoymalı, dostcasına davranmalıdır; imperiya xislətindən əl çəkməli, keçmiş ittifaq respublikalarını, xüsusən də Azərbaycanı bərabərhüquqlu tərəfdaş ölkə kimi görməlidir. Münasibətlərin sonrakı inkişafı isə Kremlin mövqeyindən və yürütdüyü siyasətdən, atacağı praktik addımlardan bilavasitə asılı olacaq".

❑ **Cavanşir ABBASLI?**
**"Yeni Müsavat"**

# Türkiyənin yeni nəsil qırıcı təyyarə istehsalına əngəl - ABŞ-nin o şərti...

## Polkovnik: "Türkiyə müdafiə sənayesi KAAN qırıcı təyyarəsinin mühərrikini istehsal etmək istiqamətində addım atmalıdır"

**Türkiyənin xarici işlər naziri Hakan Fidan bildirib ki, milli döyüş təyyarəsi KAAN-ın istehsalı ABŞ sanksiyaları səbəbindən ləngiyir. Nazirin sözlərinə görə, təyyarə üçün mühərriklərin lisenziyasının ABŞ Konqresi tərəfindən CAATSA qanunu əsasında dayandırılması Türkiyənin KAAN-ın istehsalına başlamasına mane olur. CAATSA 2019-cu ildə Türkiyənin Rusiyadan "S-400" sistemlərini almasından sonra qüvvəyə minib.**

Fidan qeyd edib ki, KAAN-ın istehsalını başlatmaq üçün lisenziyaların təsdiqlənməsi və mühərriklərin Türkiyəyə çatdırılması vacibdir. Nazir həmçinin bildirib ki, bu kimi məhdudiyyətlər NATO müttəfiqləri arasında "sistemli problem"dir və tərəfdaşlıq ruhuna uyğun gəlmir.

Qeyd edək ki, beşinci nəsil KAAN qırıcıları Türkiyənin milli istehsalı olan ilk döyüş təyyarəsidir və 2017-ci ildən bəri inkişaf etdirilir. Qırıcı təyyarənin




təcrübi prototipi 22 fevral 2024-cü ildə ilk uçuşunu həyata keçirib. Seriya istehsalı 2028-ci il üçün planlaşdırılıb. Artıq İndoneziya KAAN qırıcılarından 48 ədədinin alınması üçün 10 milyard dollar dəyərində müqavilə imzalamağa yaxındır. Bu razılaşma KAAN qırıcılarının ilk beynəlxalq ixracı olmaqla yanaşı, Türkiyə tarixində ən böyük müdafiə sənayesi müqavilələrindən biri ola bilər.

Bəs hərbi texnologiya, özəlliklə PUA-lar sahəsində dünyada bir sıra ilklərə və uğurlara imza atmış, faktiki inqilab eləmiş Türkiyə bu problemin öhdəsindən də özü gələ bilərmi? Yerli mühərriklərin istehsalı mümkündürmü?

**Hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov "Yeni Müsavat"a bildirdi ki, KAAN qırıcı təyyarələri 5-ci nəsil təyyarə olmaqla yanaşı, "F35" qırıcılarından geri qalmayan imkanları ilə seçilir:** "Türkiyə xarici işlər nazirinin açıqlamasından sonra bəlli oldu ki, KAAN təyyarəsinin mühərrikləri ABŞ-dən idxal olunur. Bu isə təbii ki, milli istehsalda istər-istəməz müəyyən problem yaradır. Türkiyə müdafiə sənayesi KAAN qırıcı təyyarəsinin mühərrikini istehsal etmək istiqamətində addım atmalıdır. Yəqin ki, bu addım atılacaq. Təyyarə mühərriklərini, xüsusən də yeni nəsil qırıcı təyyarələrinin mühərrikini istehsal etmək elə də asan məsələ deyil. Bu, hər dövlətin imkanları daxilində olmur. Bu mühərriklərin istehsalı təyyarənin özünün istehsalı qədər çətindir, böyük vəsaitlər tələb edir. Hesab edirəm ki, Türkiyə KAAN təyyarəsinin mühərrikinin istehsalına nail olmaq istiqamətində çalışır. Güman edirəm ki, onun mühərrikinin istehsalı üçün başqa hansısa dövlətdən lisenziya almağa ehtiyac olmadan onun mühərrikini də istehsal etmək mümkün olacaq".

**Ekspert xatırlatdı ki, bir zamanlar Türkiyə PUA-ların istehsalına başlayanda da bəzi hissələrinin xaricdən alınması kimi müəyyən problemlər var idi:** "Hətta 44 günlük müharibə zamanı Kanada həmin PUA-ların bəzi cihazlarını, mühərrikini Türkiyəyə satmaqdan imtina etmişdi. Bəhanə isə o olmuşdu ki, həmin PUA-lar Azərbaycana satılır. Lakin Türkiyə dövləti bu problemi PUA-larının mühərrikini, xaricdən alınan hissələrini özü istehsal etməyə başlamaqla həll etdi. Bu təcrübə onu deməyə əsas və ümid yaradır ki, KAAN qırıcılarının mühərriklərini də Türkiyə müdafiə sənayesi istehsal edəcək. Türkiyə kimi böyük, güclü dövlətin bu cür strateji məsələlərdə başqa dövlətlərdən asılılığı olmamalıdır. Mən hesab edirəm ki, Türkiyə dövləti xüsusi elmi-tədqiqat institutlarını daha da gücləndirəcək və müdafiə sənayesini o həddə qədər inkişaf etdirəcək ki, istehsal etdiyi qırıcı təyyarələrini də özünün milli istehsalı olan mühərriklərlə təchiz edəcək. Buna müəyyən zaman lazımdır. Türkiyə ilkin olaraq dost Ukrayna dövləti ilə birgə qırıcı təyyarə mühərrikləri istehsal edə bilər. Ukraynada Antonov zavodunda böyük təyyarələr istehsal olunurdu və onların mühərrikləri də istehsal edilirdi. Həmin zavod bu gün fəaliyyət göstərmir. Türkiyə Ukrayna ilə birgə zavod qurmaq istiqamətində əməkdaşlıq edə bilər".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 177 (8787) 2 oktyabr 2025

# Ermənistan rəhbərliyi 8 avqust razılaşmalarını pozmaq istəyir?

## Rəsmi İrəvan Moskvadan aldığı təlimatlar əsasında qeyri-konstruktiv mövqe sərgiləməyə başlayıb



**Ermənistanın baş naziri Nikol Paşinyan BMT Baş Assambleyasındakı çıxışında olduğu kimi, Avropa Şurası Parlament Assambleyasında da "Zəngəzur dəhlizi" ifadəsindən təşvişini əcaib şəkildə ifadə etdi. Məlum olduğu kimi, Azərbaycan Prezidenti BMT Baş Assambleyasında bildirmişdi ki, regional bağlantılar davamlı sülh istiqamətində baxışlarımızın əsasını təşkil edir.**

**Sitat:** "Vaşinqton sammitinin mühüm nəticələrindən biri də Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"dur (TRIPP). Vaşinqton sammiti, həmçinin Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələnin başlanmasına işarədir. Azərbaycanla Birləşmiş Ştatlar arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında iki hökumət arasında anlaşma memorandumunu Prezident Donald Trampla birgə imzaladıq. Bu, siyasi, iqtisadi, enerji, regional bağlantılar, müdafiə, təhlükəsizlik və digər sahələrdə tərəfdaşlıq üçün yeni üfüqlər açır".

Dövlət başçımızın sülh və əməkdaşlıq mesajlarından sonra Ermənistan rəhbərliyinin destruktiv fəaliyyətini müşahidə etməkdəyik. N.Paşinyanın "Zəngəzur dəhlizi" ifadəsində "səhv" axtarması absurd olmaqla yanaşı, tarixi danmaq cəhdidir. Baş nazirin AŞ PA-da da bənzər iddialarla çıxış etməsi ondan xəbər verir ki, rəsmi İrəvan yenidən "val"ı dəyişib. Eyni zamanda Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da MDB Hökumət Başçıları Şurasının Minsk toplantısında Paşinyanın sərsəmləməsini davam etdirib. Ermənistan rəhbərliyi Zəngəzur ifadəsindən niyə qorxur? Bununla Azərbaycanı şantaj etməyə girişiblər, yoxsa Rusiyada aldığı təlimatların ardınca Paşinyan və komandası 8 avqust razılaşmalarını pozmaq üçün hərəkətə keçiblər?

**Bu mövzuda Milli Məclisin plenar iclasında da maraqlı fikirlər söyləyən deputat Sahib Alıyev "Yeni Müsavat"a açıqlamasında bunları bildirdi:** "Moskva səfərinin dərhal ardından Nyu-Yorka gedən Ermənistan baş nazirinin BMT kürsüsündən Azərbaycan Prezidenti cənab İlham Əliyevin orada etdiyi çıxışında işlətdiyi "Zəngəzur dəhlizi" və "kapitulyasiya" ifadələrinə etiraz bildirməsi belə bir təəssürat yaradırdı ki, iki ölkə arasında konflikt potensialının qaldığını sərgiləmək haqda o, sanki kiminsə qarşısında öhdəlik götürüb. Yəni onun tam yerində işlədilmiş, onun üçün hələ hansı geosiyasi və coğrafi yenilik olmayan həmin ifadələrə görə özünü iincimiş kimi göstərməsi və bunu AŞPA-dakı çıxışında da təkrarlaması süni xarakter daşıyır. Çünki Paşinyan özünün də etiraf etdiyi kimi, kapitulyasiya aktına qol çəkib, amma bir dəfə, müxtəlifətin iddia etdiyi kimi, 5-6 dəfə yox".

**"Zəngəzur" sözünə gəldikdə, deputat xatırlatdı ki, onun ölkəsində düz 1952-ci ildən bu ad altında fəaliyyət göstərən mis-molibden kombinatı var:** "Niyə o, Zəngəzur mis-molibden kombinatı adlanır, Paşinyan bilmir? Ümumiyyətlə, Ermənistan baş nazirinin sülh haqda danışdıqları da Avrasiya İqtisadi Birliyinin bundan ən çox fayda əldə edən üzvü ola-ola, sərhədlərini Rusiyanın Federal Təhlükəsizlik Xidməti qoruya-qoruya, həmin dövlət Gümrüdə hərbi bazası yerləşə-yerləşə Avropa Birliyində yer almaqdan dəm vurmasına bənzəyir. Yəni onu konstruktiv edən də, 8 avqustda Vaşinqtonda məlum sənədə imza atdıran da 10 noyabr 2020-ci ildə olduğu kimi dəmir yumruqdur". **S.Alıyev zəruri bir xatırlatma da etdi:** "Cənab Trampın elə həmin Nyu-Yorkda onlarla ölkənin liderinin dəvət olunduğu rəsmi naharda Azərbaycan Prezidentinə ayrıca diqqət göstərərək ona regiondakı vəziyyətlə bağlı sual verməsi Qafqaza sülhü gətirənin də, onu təmin edənin də məhz bizim dövlət başçımızın olduğunun etirafı deyildimi? Yeni sözüm ondadır ki, Paşinyanın nə deməsindən, haradan tapşırıq almasından, hətta onun yerinə kiminsə gəlməsindən asılı olmayaraq, Azərbaycan regionda sülhü təmin edəcək. Ermənistan özünü düzgün aparmasa, bu sülh həm də onlar üçün indikindən qat-qat əlverişsiz olacaq".

**Sosial Tədqiqatlar Mərkəzinin baş mütəxəssisi, siyasi şərhçi Tural İsmayılov** isə bildirdi ki, Ermənistan rəhbərliyinin son çıxışları, xüsusilə də Nikol Paşinyanın BMT Baş Assambleyasında və Avropa Şurası Parlament Assambleyasında (AŞ PA) səsləndirdiyi bəyanatlar Zəngəzur dəhlizi məsələsinə qarşı yeni bir qorxu dalğasının formalaşdığını göstərir: "Baş nazirin ritorikasında diqqət çəkən məqam odur ki, o, dəhliz anlayışını təhlükə kimi təqdim etməyə çalışır. Bu, Ermənistan cəmiyyətində daxili siyasi konsolidasiyanı gücləndirmək üçün istifadə edilən alətlərdən biridir. Əslində Zəngəzur dəhlizi ideyası bölgədə kommunikasiyaların açılması, iqtisadi əlaqələrin genişlənməsi və yeni əməkdaşlıq imkanlarının yaranması baxımından mühüm bir təşəbbüsdür. Lakin İrəvan rəhbərliyi məsələni siyasi manipulyasiya predmetinə çevirir".

**T.İsmayılov əlavə etdi ki, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın MDB Hökumət Başçıları Şurasının Minsk görüşündə verdiyi açıqlamalar da bu strategiyanın davamıdır. Qriqoryanın çıxışı Paşinyanın mövqeyini təsdiqləməkdən başqa bir şey deyildi:** "Sual yaranır: Ermənistan niyə bu qədər narahatdır? Bunun bir neçə səbəbi var. Birincisi, Zəngəzur dəhlizinin açılması ilə Azərbaycan və Türkiyənin regiondakı strateji mövqeyi daha da güclənəcək. İkincisi, Ermənistanın coğrafi izolyasiyası aradan qalxsa belə, bu prosesin İrəvanın tam nəzarətində olmayacağı qorxusu mövcuddur. Üçüncüsü, bu dəhliz layihəsi Ermənistanın uzun illər formalaşdırdığı "blokada" arqumentini zəiflədərək beynəlxalq müstəvidə mövqelərini daha da zəiflədə bilər. Paşinyanın və komandasının şantaj taktikasına üstünlük verdiyi də açıq görünür. Ermənistan rəhbərliyi, Azərbaycanın dəhliz məsələsində irəli sürdüyü mövqeyi beynəlxalq tərəfdaşlara yanlış şəkildə təqdim etməyə çalışır. Bu yolla onlar, həm Brüsseldə, həm də Vaşinqtonda dəstək toplamaq niyyətindədirlər. Lakin bu siyasət Ermənistanın özünü çıxılmaz vəziyyətə salır". **STM əməkdaşının fikrincə, məsələnin digər tərəfi Rusiyanın mövqeyi ilə bağlıdır:** "Ermənistan rəhbərliyi Moskvanın təsirindən tam qurtula bilmir. Son zamanlarda Ermənistanın Qərblə yaxınlaşma cəhdləri müşahidə olunsa da, Kreml hələ də proseslərə ciddi təsir imkanına malikdir. Paşinyanın BMT-dən sonra AŞ PA-da da ritorikanı sərtləşdirməsi, böyük ehtimalla Moskva ilə razılaşdırılmış bir addımdır. Çünki Rusiya üçün dəhliz məsələsi həm regiondakı balans, həm də özünün Cənubi Qafqaz siyasətində mövqelərini qorumaq baxımından əhəmiyyət daşıyır. Bəzi müşahidəçilərə görə, Paşinyan 8 avqust razılaşmalarından geri çəkilməklə faktiki olaraq yeni bir mərhələyə qədəm qoyur. Bu razılaşmaların pozulması isə sülh prosesinə ciddi zərbə deməkdir. Halbuki ilin əvvəllərində Ermənistan rəsmiləri dəfələrlə sülh sazişinə hazır olduqlarını bəyan etmişdilər. İndi isə ritorika dəyişib".

**T.İsmayılov qeyd etdi ki, konstitusiya dəyişiklikləri məsələsi də burada mühüm rol oynayır:** "Ermənistan rəhbərliyi sülh sazişini Konstitusiya Məhkəməsinin rəyi ilə şərtləndirməklə faktiki olaraq prosesi uzatmaq və məsuliyyəti başqa bir instansiyanın üzərinə atmaq istəyir. Bu isə siyasi iradənin olmaması deməkdir. Əgər bir hökumət ölkəsinin gələcəyi üçün həyati əhəmiyyət daşıyan sazişi məhkəmənin öhdəsinə buraxırsa, deməli, siyasi nəticəni qəbul etmək istəmir. Burada yenə Rusiyanın təsiri ehtimalı önə çıxır. Paşinyanın son "U dönüşü" Kreml faktorundan ayrı təsəvvür edilə bilməz. Moskva Ermənistanı sülh imzalamaqdan çəkindirməklə regionda təsir mexanizmini saxlamağa çalışır. Çünki əgər Bakı ilə İrəvan arasında saziş imzalansa, Rusiyanın Cənubi Qafqazda vasitəçilik funksiyası zəifləyəcək. Bu isə Moskvanın maraqlarına ziddir. Eyni zamanda Ermənistan rəhbərliyinin sülh prosesində bu qədər tərəddüd göstərməsi onun daxili siyasətinə də hesablanıb. Paşinyan seçki ərəfəsində sərt addımlar atmamaq üçün müxtəlif bəhanələr gətirir. "Məhkəmənin rəyi" arqumenti də buna xidmət edir".

**Siyasi şərhçi bildirdi ki, Ermənistandan fərqli olaraq, Azərbaycan Zəngəzur dəhlizi məsələsində ardıcıl mövqe nümayiş etdirir:** "Bakı dəhlizi regional əməkdaşlıq və sülhün açarı kimi görür. Ermənistan rəhbərliyinin qorxuları isə yalnız siyasi manipulyasiyadan ibarətdir. Əslində dəhlizin açılması Ermənistanın öz iqtisadi maraqlarına da xidmət edəcək. Lakin İrəvan bu reallığı qəbul etmək əvəzinə, özünü geosiyasi oyunların vasitəsinə çevirir". **Ekspert qeyd etdi ki, ilin sonuna az qaldığı bir vaxtda, proseslərin hansı istiqamət alacağı sual altındadır:** "Ermənistan rəhbərliyinin dəyişkən mövqeyi sülh prosesini ləngidir. Amma regiondakı əsas aktorlar - Azərbaycan və Türkiyə - konkret hədəflər üzərində dayanırlar. Bu hədəflərin reallaşması üçün beynəlxalq dəstək də artmaqdadır. Paşinyanın çıxışları göstərir ki, Ermənistan rəhbərliyi hələ də tarixi fürsəti qiymətləndirmir. Onların qorxuları isə reallıqdan daha çox siyasi ritorikanın məhsuludur. Zəngəzur dəhlizi bölgənin gələcəyi üçün yeni imkanlar açacaq. Ermənistan isə bu imkanlardan istifadə etmək əvəzinə, yenə köhnə təxribatçı ritorikaya qayıdır. Beləliklə, Paşinyanın və komandasında olanların çıxışları Ermənistan siyasətində bir qeyri-müəyyənlik sindromunun mövcudluğunu təsdiqləyir. Həm daxili, həm də xarici siyasətdə balansı qoruya bilməyən hökumət özünü daha çətin vəziyyətə salır. Bu isə nə sülhə, nə də regionun gələcək əməkdaşlığına xidmət etmir. Nəticə etibarilə, Ermənistan rəhbərliyi Zəngəzur dəhlizi məsələsini qorxu və şantaj vasitəsinə çevirməklə əslində öz inkişaf perspektivlərini daha çətin vəziyyətə salır. Paşinyanın "U dönüşü" isə siyasi iradə yoxluğunun və xarici təsirlərdən asılılığın bariz nümunəsidir".

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

# Milyonçu şirkətlər niyə zərərlə işləyir: vergi verməmək üçün?

**Dünən Milli Məclisin deputatı Qüdrət Həsənquliyev olduqca aktual bir məsələyə toxunub. Deputat bir sıra iri dövlət müəssisələrinin dövlət büdcəsinə vergi ödəmədiyindən bəhs edib, konkret olaraq 2013-cü ildən fəaliyyətə başlayan gəmiqayırma zavodunun vergilərdən azad olunduğundan danışıb.**

**Q.Həsənquliyev deyib:** "İnternet üzərindən bir araşdırma apardım. Bu illər ərazində (adıçəkilən zavodda) 10-dan artıq yeni gəmi tikilib, 170-dən artıq gəmi təmir olunub. Yəni bu, gəlirlə işləyən bir müəssisədir. Niyə biz bunu vergidən azad etməliyik?"

Doğrudan da 10-dan artıq gəmi tikib satan, 170-dən artıq gəmi təmir edən və bunun sayəsində milyonlar qazanan, rentabelli işləyən bir müəssisə niyə vergi ödəməsin?

Bir dövləti iqtisadi baxımdan qüdrətli edən onun saat mexanizmi kimi dəqiq işləyən vergi sistemidir. Pul qazanan fiziki və hüquqi şəxslər dövlət büdcəsinə qanuni və lazımi şəkildə vergi ödəsələr, dövlətin sosial sferası da nümunəvi olar, hərbi qüdrəti də artdıqca artar.

Yoxsa milyonlar qazanan iri müəssisələr vergidən azad olunacağı təqdirdə, vergi yükünün xırda və orta sahibkarların çiyninə düşməsi ilə hərtərəfli inkişafa nail olmaq mümkün deyil.

Yüksək rifaha, rentabelli iqtisadiyyata malik olan ölkələrin hamısında ən dürüst, güzəştsiz işləyən sfera məhz vergi sistemidir. Təsadüfi deyil ki, həmin ölkələrdə vergi ödənilməsi namus borcu sayılır və vergidən yayınma ən ağır cinayət hesab olunur.

Bizdə isə, məlum olduğu kimi, bu sahədə ciddi axsamalar var.

Son illərdə dövlət müəssisələrinin bir çoxu sözləşibmişlər kimi "zərərlə işlədikləri"ni bildirir, vergi ödəmir, hələ dövlət büdcəsindən dotasiya tələb edirlər.

Necə olur ki, Azərbaycanın yarısı boyda olan ölkələrdə analoji müəssisələr gəlirlə işləyir, amma bu, Azərbaycanda mümkün olmur?

Elə şey ola bilməz. Deməli, həmin təsərrüfat düzgün idarə edilmir, ştatları şişirdilib, müftəyeyənlər artıb, alqı-satqılarda korrupsiyaya yol verilir və s.

Bunun mexanizmi çox sadədir: həmin müəssisələr xaricdən və ya ölkə daxilindən onlara lazım olan cihazı, avadanlığı və sair inventarı alarkən alış qiymətini şişirdir, məsələn, 5 manatlıq materialı 15 manata alırlar. Bu əməliyyatı aparan rəhbər şəxslər inventarın real və şişirdilmiş qiymətlərinin arasındakı fərqi satan şirkətin rəhbərliyi ilə bölür. Şeytanın ağlına gələ bilməyəcək maliyyə maxinasiyaları edilir.

Belə bir fantastik əməliyyat 7-8 il əvvəl SOCAR-da, köhnə rəhbərliyin vaxtında aparılıb. Şirkət Almaniyadan 3 milyon dollara qazma qurğusu almalı imiş. Sonradan adı cürbəcür qalmaqallı işlərdə hallanan məsul işçilərdən biri həmin qurğunu 12 milyon dollara sənədləşdirmək istəyib. Bundan ötrü lazımi sənədə imza atmalı olan məsul şəxs mənimsəniləcək məbləğin böyüklüyündən (9 milyon dollar) qorxub, təklif edib ki, yeyinti heç olmasa 1-2 milyon olsun. Ancaq rəhbərlər razı olmayıb, 12 milyon deyib durublar. Həmin şəxs istefa verib, yerinə başqasını təyin ediblər və 1-2 aydan sonra əsl qiyməti 3 milyon olan avadanlıq Almaniyadan 12 milyon dollara alınıb ölkəyə gətirilib.



Dərindən araşdırmalar aparılsa, Azərbaycanın neftindən gələn milyardları təkcə Adnan Əhmədzadənin yemədiyi üzə çıxar.

Bu, yalnız bir şirkətdə olan haqq-hesabdır. Həqiqətdə isə tam əksəriyyəti belə edir. Elə olandan sonra təbii ki, iri şirkətlərin dövlət büdcəsinə ödənişləri mənimsənilmiş vəsaitlər qədər azalır. Çünki büdcəyə çoxdan çox, azdan az ödənilir.

Məsələnin başqa bir tərəfi də var: qoy zərərlə işlədiklərini bəyan edən müəssisələrin rəhbərliyinə yeni nəsil iqtisadçılar cəlb edilsin. Ölkədə xeyli savadlı iqtisadçı var, onlar bir müəssisəni necə gəlirlə işlətməyin yolu, üsulu barədə dəyərli tövsiyələr verə bilərlər.

Yoxsa bir sıra dövlət müəssisələrinin rəhbərləri ildə dörd dəfə çıxırlar, öz xidmətlərinin qiymətinin artırılmasının vacibliyini bildirirlər. Metropoliten rəhbərliyi istədiyini alır, AYNA başlayır, sonra işıq, su, istilik satanlar, yol çəkənlər dilə gəlir. Hamısı ziyandaymış, qiymətlər artmalıdır ki, bunlar borcdan çıxa bilsinlər.

Qiymətlər artır, amma onların borcları yenə də bitmir. Sadəcə, bu müəssisələrin rəhbərlərinin özlərinin və övladlarının lüks avtomobillər qarajı yenilənir, şəhərin müxtəlif yerlərində aldıqları lüks mənzillərin sayı artır, bank hesabları şişir və s.

İl yenilənəndə onlar yenidən dilə gəlirlər. Nəticədə qiymət artımları zəncirvari şəkil alır, arada milli valyutamızın alıcılıq qabiliyyəti sarsılır.

Kiçik sahibkarlar, fiziki şəxslər dövlətin xərclərini ödəmək gücündə deyil. Bundan ötrü böyük müəssisələr, iri şirkətlər real qazanclarından real vergilər verməlidirlər.

Qüdrət Həsənquliyev düz deyir, Milli Məclis hökumət qarşısında məsələ qaldırmalıdır. Qoy bütün dövlət müəssisələri ödədikləri vergilərin həcmini ilin sonunda açıqlasınlar.

Bu məsələdə aşkarlıq olsa, bilinəcək ki, böyük dövlət müəssisələrinin hansı xərclərini şişirdir və az miqdarda vergi ödəyir, hansı belə etmir.

❑ **Xalid KAZIMLI**

# Fransızlar milyarder Əhmədova necə kələk gəliblər...

## Bakıda məhkəmədə beynəlxalq korrupsiya işi araşdırılır

**Bu gün Bakı Ağır Cinayətlər Fransa vətəndaşı Anass Derrazın cinayət işi üzrə məhkəmə prosesi davam etdiriləcək. Həbsinə qədər o, Fransanın milyardlarla dollar dövriyyəsi olan "SAUR" şirkətinin vitse-prezidenti olub.**

"Yeni Müsavat"ın əməkdaşı xəbər verir ki, hakim Fərid Namazovun sədrlik etdiyi prosesdə şahidlərin dindiriləcəyi gözlənilir. Anass Derraz azərbaycanlı milyarder Fərhad Əhmədovun adı keçən beynəlxalq korrupsiya işi üzrə Dövlət Təhlükəsizliyi Xidməti əməkdaşları tərəfindən saxlanıb və istintaq olunub. O, cinayət yolu ilə əldə edilən milyonlarla vəsaiti leqallaşdırmaqda və külli miqdarda rüşvət almaqda ittiham olunur.



İş üzrə ötən prosesdə təqsirləndirilən şəxs dövlət ittihamçısının suallarını cavablandırıb. O bildirib ki, Fərhad Əhmədova müqavilə əsasında kömək edib, işləri ilə bağlı məsləhətlər verib: "Mən ixtisasca mühəndis olsam da, insanlara hüquqi və texniki yardım kimi xidmətlər göstərmişəm. Fərhad Əhmədovun yaxtasının həbsdən azad edilməsi ilə bağlı görüşlərim olub. Mənim missiyam yaxtanın həbsdən azad edilməsi ilə bağlı aparılan işlərdə koordinasiyanı təmin etməkdi. Mən şirkətin mandatlı nümayəndəsi idim. Həmin mandatı istintaqa da, məhkəməyə də təqdim etmişəm".

**A.Derraz qeyd edib ki, Fərhad Əhmədovun yaxtasının üzərindən həbs götürülsəydi, qonorar alacaqdı:** "Lakin işlər biz deyən kimi olmadı, məhkəmə yaxtanı azad etmədi".

Daha sonra prosesdə A.Derrazın istintaqa ifadəsi elan olunub. Təqsirləndirilən şəxs həmin ifadəsində bildirib ki, Mərakeş əsilli Fransa vətəndaşı Aleksandr Benalla nüfuzundan istifadə edərək yaxtanı azad edəcəyini bildirib: "Hoteldə görüşüb müqavilə imzaladıq. Bizim işimiz ondan ibarət idi ki, yaxtanın üzərinə qoyulan həbsi götürərək beynəlxalq sularda üzməsini təmin edək. Müqaviləyə əsasən, bu işlərə görə Fərhad Əhmədov 6 milyon 140 min dollar ödəməliydi. Mənə dedilər ki, 1 milyon sənə veriləcək. Lakin mən razılaşmadım, 2 milyon 250 min dollar mənə, 3 milyon 290 min dollar isə Benallaya verilməli idi. İlkin olaraq, mənə 200 min dollar, Benallaya isə 400 min dollar çatdı. İş tamamlanmadığı üçün qalan pul verilmədi".

**A.Derraz bildirib ki, Benallaya köçürülən 400 min dollar bank əməkdaşları tərəfindən şübhəli hesab olunduğundan imtina edilib:** "Pulun mənbəyini soruşduqda Benalla Fərhad Əhmədova məxsus yaxtanın azad edilməsi üçün vəsaitin olduğunu bildirib. Bank əməkdaşları internetdə yaxtanın həbsdə olmadığını gördükləri üçün əməliyyatdan imtina ediblər. Amma mənə köçürülən 200 min dolların mənbəyini bildirdiyim üçün bankda problem yaranmadı".

İttihama görə, adları çəkilən şəxslər - Derraz və Benalla Fərhad Əhmədovdan rüşvət tələb ediblər və bunun müqabilində sonuncunun dəbdəbəli "Luna" yaxtasını həbsdən azad edəcəklərini, Fərhad Əhmədovun özünün sanksiyalardan qorunacağını vəd ediblər.

Ümumilikdə, onlar arasında 6 milyon 140 min dollar rüşvət verilməsi ilə bağlı razılıq əldə edilib.

İstintaq sənədlərinə görə, 15 noyabr 2018-ci ildə 600 min ABŞ dollarını, gəminin üzərindən həbs götürüldükdən sonra isə 15 gün ərzində 5 milyon 540 min dolları Fərhad Əhmədovun tərəflərə verməsini razılaşdırıblar. Hər iki tərəf arasında məsləhət müqaviləsi imzalanıb.

F.Əhmədov Anass Derrazın "AL HILAL BANK"dakı hesabına 200 min dollar və Aleksandr Benallanın "Bank of Africa United Kingdom PLC SC PAR"dakı hesabına 400 min dollar köçürüb. Anass Derraz Benallanın Fərhad Əhmədovdan rüşvət almasına kömək etməkdə ittiham olunur.

Qeyd edək ki, Annas Derraz 1984-cü ildə Mərakeşdə anadan olub, Fransa Respublikasının və Mərakeş Krallığının vətəndaşıdır. O, "SAUR" şirkətinin vitse-prezidentidir. Şirkət Dubayda qeydiyyatdan keçib.

DTX tərəfindən Anass Derraza qarşı Cinayət Məcəlləsinin 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma - xeyli miqdarda törədildikdə) və 32.5, 311.3.3 (rüşvət alma (passiv rüşvətxorluq) - külli miqdarda törədildikdə) maddələri ilə ittiham irəli sürülüb.

Verilən ittihamlar məhkəmə istintaqında sübuta yetirilərsə, Anass Derraz 8 ildən 12 ilə qədər azadlıqdan məhrum edilə bilər.

Annas Derraz Azərbaycanda məsuliyyətə cəlb olunaraq ölkədən çıxışına qadağa qoyulub, A.Benallanın isə beynəlxalq axtarışa verilməsi ilə bağlı İnterpola müraciət olunub. İnterpol Baş Katibliyi uzun prosedurdan sonra ümumi qərarla Fransa vətəndaşı Aleksandr Benallanın axtarışını əsaslı hesab edərək, onu 2025-ci ilin aprel ayında "Red Notice" ("Qırmızı bülleten") ilə beynəlxalq axtarışa daxil edib və bu barədə bütün üzv dövlətlərə bildirişlər göndərib.

İnterpolun Fransa Prezidentinin mühafizə xidmətinin sabiq rəhbərini "Red Notice" ("Qırmızı bülleten") əsasında beynəlxalq axtarışa verməsi DTX-nin əlində təkzibedilməz və mötəbər sübutların mövcudluğundan xəbər verir. "Qırmızı bülleten" şəxsin olduğu ölkədə tutulmasını və barəsində axtarış elan etmiş ölkəyə ekstradisiyasını nəzərdə tutur. Aleksandr Benallanın hazırda olduğu üçüncü ölkədə ekstradisiya proseslərinə cəlb edildiyi məlumdur.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 178 (8787) 2 oktyabr 2025



# Eşşək, it və qadın haqqında hədis

Zamin HACI
zaminhaci@gmail.com

**İnsan yaşa dolduqca onda Allah qorxusu artır. Nə gizlədim, məndə də bu cür proseslər getməkdədir və nəticə olaraq çoxlu dini kitablar, xüsusilə hədislər oxumağa başlamışam. Hədis kitablarından aldığım zövqü-səfanı heç bir kitab mənə vermir.**

Bu yerdə Qasım bəy Zakirdən bir-iki beyt yadıma düşüb, mövzuya dəxli olmasa da oxuyun: "Sən onda eylə zövqü səfa bağ arasında, Mən munda yanım piltə kimi yağ arasında. Peykanlarını sineyi-çakimdə görən der: -Bir qönceyi-tərdir ki, bitib bağ arasında".

Qayıdaq hədis mövzusuna. Təzəlikcə oxuduğum bir hədis həqiqətən ləzzət elədi. Buyurun, siz də oxuyun: "Namaz qılan şəxsin qabağından qadın, eşşək və it keçərsə, bu zaman dua pozulur" (Müslim-in hədislər toplusu).

Yəni kişi xeylağı keçsə namaz pozulmur. O cümlədən at, inək, qoyun, pişik, milçək, ilan, donuz, dinozavr da keçsə, namaza təsiri yoxdur, lakin qadın, eşşək və it keçsə, vardır.

Burada qadına qarşı hər hansı hörmətsizlik edilmişdirmi? Yox. Qətiyyən. Cənnət anaların ayağı altındadır - bu da dini söhbətdir, bilirsiniz. O cümlədən Seyid Əzimin məşhur əsərindən sitat gətirsək, "it demə, o dəxi bizim birimiz", yəni eşşək və iti qadınla yanaşı hallandırmaqda qətiyyən təhqiramiz nəsə yoxdur. İt var, insandan yaxşı yaşayır. Həmçinin İsa peyğəmbər eşşəyin belində gəzib-dolaşırmış. Eşşək pis və murdar olsa, niyə peyğəmbər onu minirdi? Bir növ, eşşəyin də belinə peyğəmbər əli dəymişdir.

Ümumiyyətlə, hazırkı dövrdə dünyada dinə hörmət azalır, bu da qiyamətin yaxınlaşması əlamətlərindən biridir. Ancaq sevindirici hallar da vardır. Məsələn, Əfqanıstandakı mömin qardaşlarımız olan "Taliban" iki gün qabaq bütün ölkə ərazisində interneti dibindən bağlamışdır. Artıq orada nə TikTok var, nə Vatsap var, nə Feysbuk var, nə də tərbiyəsiz videolara baxıb pozulan və evdən qaçan gəlinlər. Bu saat dünyada ən əxlaqlı ölkə Əfqanıstandır, xəbəriniz olsun. Bütün mömin qardaşlarımızı təcili şəkildə Əfqanıstana köçməyə səsləyirəm. Şair bu vəziyyəti bəlkə də uzaqgörənliklə təsvir etmişdir: "Oyadar xəlqi əfqanlar, Bakıda yaşayanlar oyanmazmı?"

Düzdür, hələ təzə başlayıblar, ancaq təsəvvür edin, Əfqanıstanda beş-on ilə necə təlim-tərbiyə görmüş nəsil yetişəcəkdir. Yoxsa bizdə hərə əlinə bir telefon alıb, onu çəkir, bunu çəkir... Biri çayı müştəriyə saf, təmiz verməkəvəzinə içinə tüpürüb çəkir. Özü də zənən xeylağı... İndi sən yuxarıdakı hədisə nə üçün inanmırsan? İkincisi ölü yerindən video çəkir, üçüncüsü diri yerindən. Biabırçılıq baş alıb gedir. Allah Qorbaçovun evini yıxsın (buna istənilən kontekstdə ehtiyac var). Hamısını eləyən internetdir, Vatsapdır,TikTok-dur. Camaat baxır oralara, tərbiyəli olanlar da yolunu azır. Deyir, niyə mənim də filan yerim filankəsinki kimi olmasın.

Bu saat ən ciddi problemlərdən biri zənənlərin plastik əməliyyatlarıdır. Bütün xalqımızı ciddi narahat edir. Çünki nə dua eləyə bilirik, nə məsum qala bilirik... Elə çalışırsan dua eləyəsən, kiminsə harasısa qabaqdan keçir. Bunu hörmətli oxuculardan üzr istəyərək yazıram. O qədər böyüdürlər orqanları... Bu, dözülməz vəziyyətdir. Nazirlər Kabineti də bəlkə 3 ay ərzində nəsə qərar layihəsi hazırlamalıdır.

Həmçinin Qida Agentliyi çaya tüpürən zənənlər haqda hədisləri hazırlamağa borcludur.



# Putin əsgərlərini Güney Qafqazdan çıxarmayacaq - şok hədə

## Rusiya 102-ci hərbi bazanın getməməsi üçün dəridən-qabıqdan çıxır - məqsəd odur ki...

**"Rusiyanın 102-ci hərbi bazasının çıxarılması məsələsi Ermənistan və Rusiya arasında ikitərəfli münasibətlərin gündəmində deyil". Bu barədə Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin bildirib. "102-ci hərbi bazanın çıxarılması ikitərəfli münasibətlərin gündəmində deyil. Ermənistan tərəfi bunu bütün səviyyələrdə açıq şəkildə bəyan edib. Rusiyanın hərbi iştirakı Ermənistanın təhlükəsizlik sisteminin ən mühüm dayağı və regional sabitliyin mühüm amili olaraq qalır. Eyni zamanda hərbçilərimiz regionda heç kimə heç bir təhlükə yaratmır", - səfir vurğulayıb.**

Bir müddət əvvəl Gümrüdəki hərbi bazanın qarşısında aksiya keçirilmiş, rus hərbçilərin bölgəni tərk etməsi tələb olunmuşdu. Paşinyan da Rusiyanın Ermənistanda hərbi varlığını təhdid adlandırıb. Lakin son dövrlər Moskva-İrəvan əlaqələrində bir hamarlaşma var. Erməni baş nazir son olaraq Rusiyadakı atom forumunda iştirak edib. Bununla belə, Azərbaycanla Ermənistan sərhədindən rus hərbçilər çıxarılıb. Eləcə də "Zvratnots" aeroportundan 12 rus sərhədçi gedib. Bunun davamı Ermənistanın Türkiyə və İranla sərhədlərində gözlənilir. Bundan sonra Gümrüdəki bazanın qalması əhəmiyyətsiz olacaq.

Rus səfirin açıqlamasından isə görünür ki, Kreml 102-ci hərbi bazanın getməməsi üçün dəridən-qabıqdan çıxır. Hətta İrəvanın adından belə bəyanat verildiyi də açıqlanır.

Rusiya Ermənistanda hərbi bazasını saxlaya biləcəkmi? Müqavilə 2044-cü ilədək imzalanıb, rusların erkən gedişi mümkündürmü?

**Siyasi ekspert Ramiyə Məmmədova** Rusiya-Ermənistan münasibətlərinin ziqzaq olduğunu bildirdi. Onun sözlərinə görə, iqtisadi sahədə əməkdaşlıq davam edir, ticarət dövriyyəsi var, amma siyasi əlaqələrdə tez-tez anlaşılmazlıqlar yaranır. "Bunun səbəbləri Paşinyan hakimiyyətinin Qərbə inteqrasiya kursunu dəstəkləməsidir. Onun missiyası Ermənistanı Rusiyadan uzaqlaşdırmaqdır və bu öhdəliklə iqtidara gəlib. Lakin mürəkkəb məsələdir və Rusiyanın forpostu olmuş bir ölkəni ondan qısa müddətdə qoparmaq mümkün deyil. Çünki Ermənistanda siyasi-iqtisadi, hərbi təsirləri var. Həmçinin xalqın heç də hamısı Rusiyadan üz çevirməyib. Paşinyan hakimiyyəti anti-Rusiya təbliğatı aparsa da, cəmiyyətdə bu ölkəyə müttəfiq kimi baxanlar qalıb. O nöqteyi-nəzərdən, Rusiyanın hərbi bazasını çıxarmaq ağrılı prosesdir. Bu, həm Ukrayna müharibəsinin nəticələrindən, həm də Putinlə Paşinyanın münasibətlərindən asılıdır", - deyə ekspert vurğuladı.

**Təhlilçi qeyd etdi ki, əgər liderlər səviyyəsində razılaşma əldə olunarsa, 102-ci hərbi bazanın bağlanması mümkündür:** "Ama bunun üçün ABŞ və Türkiyənin Ermənistan hakimiyyətinə dəstəyi lazımdır. İrəvan belə güclü beynəlxalq himayənin altında siyasi iradə nümayiş etdirə bilər. Paşinyan arxayın olmalıdır ki, ona möhkəm siyasi təminat veriləcək. İkinci ssenari isə Rusiyanın getdikcə zəifləməsi və Cənubi Qafqazda sonuncu "qalası" olan Ermənistanı tamamilə itirməsidir. Məncə, Paşinyan son varianta üstünlük verir. Hazırda müharibənin gedişini izləyir, Rusiya ilə əlaqələri də pozmur, sinxron şəkildə isə sülh gündəliyini ABŞ masasında davam etdirir. Ona görə erməni rəsmilər bəyan edirlər ki, Gümrüdəki hərbi bazanın çıxarılması gündəmdə deyil. Çünki Paşinyan seçki ərəfəsində Rusiyanı qəzəbləndirmək istəmir. Elə bu səbəbdən atom forumunda iştirak üçün Moskvaya da getdi. Odur ki, rus hərbi bazasının ləğvi yaxın gələcəkdə real görünmür".

**Ekspertə görə, hadisələrin inkişafından asılı olaraq, xüsusən də Türkiyə ilə quru sərhədlərin açılması, Zəngəzur dəhlizinin reallaşması Ermənistanın arqumentlərini gücləndirəcək ki, 102-ci hərbi bazanın ləğvini tələb edə bilsin:** "Çünki bu halda Ermənistanın təhlükəsizliyinə Rusiyanın cavabdeh olması üçün ehtiyac yoxdur. Onsuz da bir bəhanədir və Ermənistana qonşularından hər hansı təhlükə yoxdur. Rusiya Cənubi Qafqazda təsirlərini saxlamaq məqsədilə bu bəhanələri irəli sürür. Amma müharibə onun bölgədə mövqeyini xeyli sarsıdıb və əvvəlki Rusiya deyil".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"



# Arutyunyanın şikayəti rədd edildi

**Ermənistan Kassasiya Məhkəməsi Qarabağın işğal altında qaldığı illərdə bölgədə qurulan qondarma rejimin "müdafiə ordusu"nun "komandanı" Cəlal Arutyunyanın və onun vəkilinin şikayətini rədd edib, hökm isə qanuni qüvvəyə minib.**

Musavat.com xəbər verir ki, bu barədə Ermənistanın məhkəmə elektron sistemi sayılan "Datalex" məlumat yayıb.

Məhkum edilmiş Cəlal Arutyunyan müvafiq cəzaçəkmə müəssisəsində cəzasını çəkəcək.

Bundan əvvəl Arutyunyan hökmün ləğv olunması və bəraət hökmü çıxarılması tələbi ilə yenidən kasasiya şikayəti vermişdi.

Xatırladaq ki, yanvarın 15-də Sünik vilayətinin ümumi yurisdiksiyalı məhkəməsi, hakim Qarik Abelyanın sədrliyi ilə keçirilən iclasda Cəlal Arutyunyanı Ermənistan Respublikasının Cinayət Məcəlləsinin 550-ci maddəsinin 3-cü hissəsinə əsasən təqsirli bilib və onu 5 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edib.

Apelyasiya məhkəməsi hökmü dəyişmədən qüvvədə saxlamışdı.

❑ "Yeni Müsavat"

# İrəvanın Bakıdan sərsəm israrı - Qriqoryan da o səhvi etdi

## Ermənistan hakimiyyəti "Zəngəzur dəhlizi" ifadəsindən niyə narahatdır? - səbəb

**Xəbər verildiyi kimi, Minskdə MDB Hökumət Başçıları Şurasının növbəti iclası keçirilib. Azərbaycanın baş naziri Əli Əsədov da toplantıya qatılıb və çıxış edib. Ermənistan baş nazirinin müavini Mher Qriqoryan isə iclasa onlayn qaydada qatılıb. O, cari ilin birinci yarısında ölkəsi ilə MDB dövlətləri arasında ticarət dövriyyəsinin təqribən 4 milyard dollar təşkil etdiyini, bu rəqəmin ötən ilin eyni dövrü ilə müqayisədə bir qədər azaldığını bildirib.**

Daha sonra Qriqoryan Azərbaycanın baş nazirinin çıxışına bir növ cavab-irad olaraq, "Zəngəzur dəhlizi ifadəsindən çəkinməyin zəruriliyini" qeyd edib. "Ölkələr arasında imzalanmış yüksək səviyyəli sənədlərə əsasən, "Trampın beynəlxalq sülh və rifaha aparan marşrutu" ifadəsi işlədilməlidir" - Paşinyanın müavini öz aləmində Azərbaycana ağıl öyrətməyə çalışıb.

Yada salaq ki, az öncə baş nazir Nikol Paşinyan BMT tribunasından Bakıya eyni iradı ünvanlamışdı. İndi də Mqer Qriqoryan. Xeyir ola? Rəsmi İrəvan Zəngəzur dəhlizi ifadəsindən niyə belə təlaş keçirir? Bəlkə Göyçə gölünü də bundan sonra ermənilərin qondarma "Sevan" adı ilə adlandıraq?

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Elxan Mirzəyev** "Yeni Müsavat"a bildirib ki, Ermənistan bu məsələni məqsədli şəkildə ortaya atıb. Onun sözlərinə görə, bununla beynəlxalq ictimaiyyətin və daxili auditoriyanın diqqəti cəlb edilir: "Paşinyan və komandası demək istəyir ki, Ermənistan ərazisindən dəhliz verilməyib. Amma Naxçıvana maneəsiz keçid özlüyündə dəhliz anlamı daşıya bilər. Bundan əlavə, Azərbaycanda Zəngəzur dəhlizi deyilməsi Ermənistanı narahat etməməlidir. Bütün hallarda, bu yol işə düşəcək və necə adlanmasından asılı olmayaraq, reallaşacaq. Sadəcə, Ermənistan rəsmiləri dəhliz adlanmasına qarşıdır. Əslində "Tramp marşrutu" da simvolik məna daşıyır. Yəni əslində Azərbaycandan Azərbaycana keçid yolu deyilməlidir. Onda görək rəsmi İrəvan nə deyəcək?"

**E.Mirzəyev qeyd edib ki, bu məsələnin beynəlxalq platformada qaldırılması Ermənistanın lüzumsuz gərginlik yaratmasıdır:** "Bu dəhlizin açılması 5 il gecikdirildi və Paşinyan öhdəliyi yerinə yetirmədi. İndi də harada çıxış edirlər, Zəngəzur dəhlizinə etiraz edirlər. Bu şəkildə yanaşmalar etimad mühitini poza bilər. Ermənistan hakimiyyəti bu bəyanatlara son qoymalıdır".

**Siyasi şərhçi Asif Nərimanlının sözlərinə görə, Paşinyan Zəngəzur dəhlizi terminologiyasına qarşı növbəti bəyanatını AŞ PA-da verib və bu, sayca üçüncüdür:** "Vaşinqton anlaşmasından sonra erməni baş nazir ilk etirazını "ŞƏT plyus" formatındakı görüşdə edib. Əliyev Çində Zəngəzur dəhlizi anlaşmasını gündəmə gətirdi, bunun bütövlükdə Avrasiyanın nəqliyyat şəbəkəsinə verəcəyi töhfədən danışdı. Paşinyan da cavab çıxışında "Zəngəzur dəhlizi ritorikasının əldə olunan sülh atmosferinə uyğun olmadığını", "Vaşinqton razılaşmasına əsasən bunun "Trampın Sülh və Rifah Marşrutu" adlandırıldığını" bildirdi. BMT Baş Assambleyasının 80-ci sessiyasında Əliyevin Zəngəzur dəhlizinin açılması ilə bağlı dedikləri də Paşinyanın etirazına səbəb oldu. Zəngəzur dəhlizi termininin sənədlərdə olmadığını deyən Paşinyan Nyu-Yorkdan birbaşa uçduğu Strasburqda - AŞ PA sessiyasında da eyni motivli tezislərdən çıxış etdi. Rəsmi İrəvanın Zəngəzur dəhlizi termininindən narahatlıq keçirməsi iki səbəbdən qaynaqlanır".



**Onun sözlərinə görə, birincisi, daxili ictimai rəydə hakimiyyətə qarşı yönələn ittihamlardır:** "Erməni baş nazir cavab haqqından istifadə etməklə erməni cəmiyyətinə "dəhliz verməmişik" mesajını çatdırmağa çalışır. İkincisi, Bakının mütəmadi olaraq bəhs etdiyi Zəngəzur dəhlizi termininin beynəlxalq leksikona daxil olmasıdır. AŞ PA-da baş verənlər bunu təsdiq edir: avropalı parlamentarilərdən biri erməni baş nazirə sual verərkən, Zəngəzur dəhlizi terminindən istifadə edib, buna əsəbiləşən Paşinyan da "o ifadəni haradan oxumusunuz? Belə bir ifadə yoxdur, olmayıb və əmin olun ki, Ermənistanla Azərbaycanın razılaşdırdığı heç bir sənəddə olmayacaq" deyib. Paşinyanın Zəngəzur dəhlizi terminin davamlı şəkildə etiraz etməsinin əsas hədəflərindən biri də məsələni Vaşinqtonun gündəminə daşımaq, Trampa "Əliyev 8 avqust anlaşmasına qarşı çıxır" mesajını verməkdir. Lakin Əliyev bu cəhdləri heçə endirən gediş etdi. BMT-də çıxışı zamanı bildirdi ki, "Vaşinqton sammitinin mühüm nəticələrindən biri də Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"dur (TRIPP).

Bu, Zəngəzur dəhlizindən TRİPP layihəsinin tərkib hissəsi kimi bəhs edilməsi idi. Əliyev bununla dəhliz ifadəsinə Vaşinqtonun yanaşmasını loyallaşdırır, TRİPP-dən bəhs edərkən, Zəngəzur dəhlizi ifadəsindən də istifadə etmək zərurəti yaradır, ABŞ-nin Paşinyanın şikayətlərinə diqqət ayırmaması, o cümlədən AŞ PA-da - Azərbaycanın iştirak etmədiyi beynəlxalq platformada baş verənlər Bakının planının işlədiyindən xəbər verir".

Xatırladaq ki, 8 avqust 2025-ci ildə Ağ Evdə ABŞ Prezidenti Donald Tramp, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında 3 tərəfli sülh memorandumunu imzalanıb. Həmin mərasimdə Donald Tramp Zəngəzur dəhlizindən də danışaraq, ABŞ-nin Ermənistanla 99 illik müqavilə imzaladığını və bu müqavilənin daha 99 il uzadılacağını bildirib. Həmçinin Donald Tramp ABŞ şirkətlərinin bu bölgəni inkişaf etdirəcəyini və çoxlu pul xərcləyəcəyini bildirib. Artıq 145 milyon dollar Ermənistana ayrılıb.

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

# "Stratfor"un proqnozu - Ermənistanda iğtişaşlar ola bilər...

## Azərbaycanlı politoloqların fikrincə, siyasi təlatümlər Paşinyana təsir etməyəcək




**ABŞ-nin məşhur analitik mərkəzi "Stratfor" Cənubi Qafqazla bağlı yeni proqnoz açıqlayıb. Hesabata görə, Qarabağ münaqişəsinin həlli regionda strateji nizamı dəyişəcək, Azərbaycanın Şərq-Qərb tranzit qovşağı kimi rolunu daha da gücləndirəcək, Ermənistan isə daxili iğtişaşlara qarşı daha həssas vəziyyətə düşəcək.**

Mərkəzin proqnozuna əsasən, Ermənistan Qərbə inteqrasiyanı davam etdirəcək və Avropa İttifaqı ilə yeni tərəfdaşlıq gündəliyi imzalayacaq. Bununla belə, Moskva ilə ticarət əlaqələri zəifləsə də, kənd təsərrüfatı, enerji və əmək miqrasiyası sahəsində dərin asılılıq qalacaq. Təhlükəsizlik baxımından Rusiyaya bağlılığın azalması, Qərbin isə məhdud dəstəyi Ermənistanı Azərbaycanın qarşısında müdafiəsiz vəziyyətə sala bilər. Bakı ilə sülh sazişinin imzalanması fonunda konstitusiya dəyişikliyi məsələsi daxildə siyasi gərginliyi artıra və uzunmüddətli etirazlara səbəb ola bilər.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun sözlərinə görə, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsindən sonra Ermənistanla birbaşa dialoq başlanıb:** "30 il ərzində belə dialoqlardan söhbət belə gedə bilməzdi, hər zaman vasitəçilər olurdu. İndi isə vasitəçilər olmadan, dialoq qurulub, sərhədlərin müəyyənləşməsi, dəhlizin salınması, sülh müqaviləsinin paraflanması, Paşinyanın reallıqları qəbul etməsi 44 günlük Vətən müharibəsinin nəticələrindən irəli gəlir. Lakin bu, yekun deyil, gələn il bölgə üçün taleyüklü illərdən biri ola bilər.

Paşinyanın verdiyi vədlərə sadiqliyindən də çox şey asılıdır. O, seçkilərdə qalib gəldikdən sonra yeni konstitusiya qəbul edərsə, o zaman sülh müqaviləsi imzalanacaq, sərhədlər açılacaq və ticarət əlaqələri başlayacaq".

**Siyasi şərhçi deyir ki, sülh müqaviləsi imzalanarsa, Rusiyanın bölgəyə təsiri kifayət qədər azalacaq:** "Ermənistanda konstitusiya dəyişikliyindən sonra uzunmüddətli iğtişaşların baş verəcəyini düşünmürəm. Əksinə, təxribatlar seçkiyə qədər ola bilər. Paşinyanı devirmək və ya öldürmək istəyə bilərlər. Lakin hələ gücləri çatmır. Çünki Ermənistanda susqun çoxluq var ki, Paşinyanı dəstəkləyir. Bu baxımdan Paşinyanın seçkilərdə qələbə çalmaq şansı var. O, qalib gələndən sonra nə qədər mitinq keçirsələr də, həmin qüvvələr reallıqla barışacaqlar".

**E.Şahinoğlunun fikrincə, Ermənistanın Rusiyadan hərbi sahədə asılılığı tədricən azalır:** "Çünki İkinci Qarabağ müharibəsindən sonra Zvartnots hava limanından Rusiya sərhədçiləri çıxarılıb, Ermənistanın İran və Türkiyə ilə sərhədində də rus sərhədçilərin sayı azalıdılıb. Əsas hədəf Rusiyanın Ermənistandakı hərbi bazasının çıxarılmasıdır. Bu, çətin olacaq, lakin Paşinyan seçkilərdə qalib gələrsə, belə bir addımı atacaq. Digər tərəfdən, seçkidən sonra Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını tərk etməsi də aktuallaşır. Paşinyan bunu indi edə bilməz. Çünki o, seçkiyə qədər Rusiyanı qıcıqlandırmaq istəmir. Lakin seçkidən sonra Rusiyadan hərbi asılılığı azaltmağa çalışacaq.

İqtisadi əlaqələr isə əlbəttə, qalacaq. Bu, Ermənistan üçün faydalıdır. Onu da qeyd edim ki, Zəngəzur dəhlizi işə düşərsə, Ermənistan Azərbaycanın nəqliyyat imkanlarından istifadə edərək də Rusiya ilə ticarət əlaqələrini gücləndirə bilər. Hazırda Ermənistan "Yuxarı Lars" keçid məntəqəsindən asılıdır. Orada qışda qar uçqunları, yayda isə çayların daşması hərəkətə mane olur. Zəngəzur dəhlizi isə Ermənistana imkan yaradacaq ki, məhsullarını Azərbaycanın üzərindən Rusiyaya çatdırsın və ticarət əlaqələri qalsın".

**Siyasi şərhçi Qulamhüseyn Əlibəylinin sözlərinə görə, Azərbaycanın inkişaf etməsi, geosiyasi və nəqliyyat-kommunikasiya mərkəzinə çevrilməsi günün reallığıdır:** "Bunu hər kəs, o cümlədən Ermənistan hakimiyyəti də başa düşür. Ona görə də prosesləri uzatmağa çalışırlar. Rusiya da bu məqamda Ermənistanda aranı qarışdırmağa çalışacaq ki, sülh prosesini pozsun və Zəngəzur dəhlizi ilə bağlı məsələni təxirə salmağa və ya özünün ona nəzarətinə nail olsun. Bu mənada Rusiyanın Ermənistana daxili təsir imkanları çoxdur. Rusiya çalışacaq ki, həmin o revanşist qüvvələrin köməkliyi ilə Ermənistanda müəyyən təxribatlar törətsin. Lakin hesab edirəm ki, erməni cəmiyyəti revanşizm ovqatında olsa da, hər halda, sağlam düşüncəli olanlar da var. Hakimiyyətdəki bu qüvvələr üstünlük qazanacaq və daxili təlatümləri geridə qoyacaqlar".

**Q.Əlibəyli bildirib ki, Ermənistanın Rusiyadan asılılığı çoxdur:** "Çünki Ermənistan iqtisadiyyatı, kommunikasiya xətəri, sərhədləri bütövlükdə Rusiyanın nəzarəti altındadır. Paşinyan bu nəzarəti zəifləməyə çalışır. Lakin Rusiyanın Ermənistan iqtisadiyyatına təsirini birdən-birə aradan qaldırmaq mümkün deyil. Zəngəzur dəhlizinin tikilməsi Rusiyanın Ermənistana təsir imkalarını xeyli zəiflədəcək".

**Politoloq deyib ki, Paşinyan seçkilərdə qalib gələrsə, müəyyən problemlər yaratmağa çalışacaq:** "Paşinyan da vaxtın uzadılmasının tərəfdarıdır. Hesab edir ki, Qərb ölkələri, xüsusən də Fransa ona kömək edəcək. Hesab edirəm ki, Paşinyan vədlərin hamısı olmasa da, müəyyən bir hissəsini yerinə yetirəcək".

❑ Şahanə RƏHİMLİ,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 177 (8787) 2 oktyabr 2025

# Ölkəyə 100 minlik istiqrazlar gəlir - xeyri...

**Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB/EBRD) Azərbaycanda ilk dəfə manat istiqrazı emissiya edəcək. Açıqlanan məlumata görə, emissiyanın həcmi 50 milyon manat olacaq, istiqrazlar 500 ədəd, hər biri nominal olaraq 100.000 manat dəyərində buraxılacaq.**

İstiqrazlar 1 oktyabr 2025-ci ildən 1 oktyabr 2026-cı ilədək müddətə veriləcək və geri ödəniləcək. Faiz dərəcəsi AZİR (Azərbaycan Banklararası Faiz Dərəcəsi) əsasında müəyyən olunacaq və faiz ödənişləri rüblük (hər üç ayda bir) həyata keçiriləcək. İstiqrazlar Bakı Fond Birjasında listinqə daxil ediləcək.

Bu hadisənin Azərbaycanın kapital bazarında önəmli bir mərhələ kimi qiymətləndirilməklə, milli valyutada istiqrazların rolunun gücləndirilməsinə xidmət edəcəyi bildirilir.

Qeyd edək ki, qiymətli kağızlar bazarı iqtisadiyyatın mühüm sahələrindən biridir. Onun inkişaf tarixi 16-cı əsr Avropasından başlayır. İnkişaf etmiş ölkələrdə bu, bazar iqtisadiyyatının əsas göstəricisi rolunu oynamaqla, maliyyə-investisiya siyasətində mühüm təsiredici qüvvəyə malikdir. Azərbaycanda qiymətli kağızlar bazarının inkişafı müstəqillik əldə olunan ilk illərdən qarşıya prioritet kimi qoyulsa da, indiyədək bu sahədə ciddi nəticələrin əldə olunduğunu söyləmək mümkün deyil. Bazar həcmləri çox cüzi rəqəmlərlə ifadə olunub, qiymətli kağızlar investisiya və reinvestisiya aləti kimi demək olar ki, iqtisadiyyatda əhəmiyyətli bir paya malik olmayıb, öz klassik rolunu oynaya bilməyib. Bunun əsas səbəbi kimi ekspertlər ölkədə inhisarçılığın yüksək həddini, məmur biznesinin təşəkkülünü, azad biznes və investisiya mühitinin olmamasını göstərirlər.

Son 3 ildə ölkədə qiymətli kağızlar bazarının inkişafına nail olmaq üçün müəyyən addımlar atılır. Bunlar arasında Maliyyə Nazirliyinin irihəcmli qiymətli kağızlarının emissiyası, Mərkəzi Bankın repo əməliyyatlarını bərpa etməsi, bir sıra iri dövlət şirkətlərinin qiymətli kağızlarının emissiyası və sairi göstərmək olar.

Azərbaycan Milli Depozit Mərkəzinin məlumatına əsasən, hazırda Azərbaycanın kapital bazarında dövlət istiqrazları, korporativ istiqrazlar və Mərkəzi Bankın qısamüddətli notları mövcuddur. Dövlət istiqrazı dövlət tərəfindən emissiya edilən istiqrazdır. Dövlət istiqrazları dövlətin əsas borclanma mexanizmlərindən biri olub, hər hansı bir fövqəladə hadisə ilə əlaqədar tələb olunan xərclərin qarşılanması və ya digər tədbirlərin həyata keçirilməsi üçün çatışmayan vəsaitin əldə olunması məqsədi güdür.

Korporativ istiqraz özəl müəssisə tərəfindən əlavə vəsait cəlb etmək məqsədilə emissiya edilən borc qiymətli kağızdır.

Mərkəzi Bankın notları isə Mərkəzi Bank tərəfindən bir ilədək müddətə buraxılan adlı sənədsiz dövlət güzəştli qiymətli kağızlarıdır. Qısamüddətli notlar dövriyyədə olan pül kütləsinin tənzimlənməsi üçün nəzərdə tutulmuş pul siyasəti vasitəsidir. "Qiymətli kağızlar bazarı haqqında" Qanuna müvafiq olaraq istiqrazların nominalı milli və ya xarici valyutada ifadə oluna bilər.




Əldə olunan nəticələr Azərbaycanda klassik və dünya ölkələrində uğurlu nəticələrə gətirən qiymətli kağızlar bazarının hələ də formalaşmadığını ortaya qoyur. Belə ki, Azərbaycan Mərkəzi Bankının açıqladığı statistikaya əsasən bu ilin yanvar-iyun aylarında Azərbaycanın qiymətli kağızlar bazarında 36 milyard 855,9 milyon manatlıq əməliyyat aparılıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 98 faiz və yaxud təxminən 2 dəfə çoxdur.

Yarımillik göstəricinin 3 milyard 72 milyon manatlıq hissəsi ilkin bazarda (28,2 faiz az), 33 milyard 783,9 milyon manatlıq hissəsi isə təkrar bazarda (2,4 dəfə çox) formalaşıb.

Hesabat dövründə qiymətli kağızlar bazarında 15 920 əqd bağlanılıb. Bu, illik müqayisədə 2,2 dəfə çoxdur. Əqdlərin 1 494-ü ilkin bazarın (26,4 faiz çox), 14 426-sı isə təkrar bazarın (2,3 dəfə çox) payına düşüb.

Açıqlanan rəsmi statistikadan aydın olur ki, Azərbaycan qiymətli kağızlar bazarının həcmində repo əməliyyatlarının payı çox yüksəkdir. Bu əməliyyatlar əsasən Mərkəzi Bank tərəfindən həyata keçirilir. Klassik anlamda repo müqaviləsi kapital bazarlarında istifadə edilən qısamüddətli borc forması olmaqla, öz maliyyə ehtiyaclarını ödəmək məqsədilə bazar iştirakçılarını müvəqqəti borc cəlb etmə imkanları ilə təmin edir. Başqa sözlə, repo müqaviləsi qiymətli kağızların müqabilində vəsaitlərin cəlb olunması deməkdir.

Göstəricilərdən aydın olur ki, altı ayda bazarda aparılan əməliyyatların 31 milyard 220.2 milyon manatı repo/əks-repo əməliyyatları olub. Bu əməliyyatlar üzrə 3020 əqd bağlanıb ki, onun da mütləq əksəriyyəti - 2772-si dövlət istiqrazları üzrə bağlanan əqdlərdir. Dəyər baxımından bu əqdlər 19 milyard 254.2 milyon manata bərabər olib. Repo/əks repo əməliyyatlarında ikinci böyük paya 11 milyard 854.3 milyon manatlıq 169 əqdlə korporativ qiymətli kağızlarla əməliyyatlar malik olub.

Maraqlıdır ki, bu ilin birinci yarısında Azərbaycan qiymətli kağızlar bazarında korporativ qiymətli kağızlarla bağlanan 1 milyard 564.0 milyon manatlıq 12 299 əqdin 10028-i səhmlərə aid olsa da, onların dəyəri cəmi 181.3 milyon manat təşkil edib. Korporativ istiqrazlar üzrə əqd sayı 2271 ədəd olsa da, dəyəri 1 milyard 382.7 milyon manat olub. Bu da Azərbaycanda səhm bazarının demək olar ki, inkişaf etmədiyini göstərir.

**Qeyd edək ki, son illərdə Maliyyə Nazirliyi istiqrazlar emissiyası yolu ilə sürətli daxili borclanmanı Azərbaycanda qiymətli kağızlar bazarının inkişafında dəstək kimi qiymətləndirirdi. Lakin Hesablama Palatasına görə, daxili borclanma ilə qiymətli kağızlar bazarının inkişaf etdirilməsi heç də uğurlu yol deyil. Palatanın 2023-cü ilin dövlət büdcəsinin icrasına verdiyi rəydə qeyd olunur ki, həmin il dövlət qiymətli kağızlarında böyük həcmdə artımın müşahidə edilməsi fonunda investor şəbəkəsində müvafiq artım olmayıb:** "Emissiya edilmiş dövlət qiymətli kağızlarının böyük qismi mövcud investorlar tərəfindən alınmış, investor şəbəkəsinin hüquqi şəxslər üzrə bölgüsündə dövriyyədə olan istiqrazların əhəmiyyətli hissəsi dövlət büdcəsindən birbaşa və ya müvafiq məqsədlər üçün vəsait almış hüquqi şəxslər olmuş, qeyd edilənlər fonunda dövlət istiqrazları üzrə orta ödəmə müddətinin aşağı, daxili borclanmaya isə tələbatın böyük həcmli olması növbəti dövrlərdə dövlət istiqrazlarının yenidən maliyyələşdirilməsi üçün əhəmiyyətli risklər yaratdığı qənaətinə gəlinmişdir".

**Palatanın 2024-cü il dövlət büdcəsinin icrasına dair rəyindən aydın olur ki, hesabat dövründə də qiymətli kağızlar bazarında artım əsasən dövlət istiqrazları hesabına baş verib:** "Ötən il həyata keçirilmiş fiskal əməliyyatlar şəraitində sterilizasiya əməliyyatlarında azalma izlənib. Hesabat ilinin sonunda AMB-nin notlarının nominal üzrə dövriyyədəki həcmi 208,2 milyon manat olmaqla, ilin əvvəli ilə müqayisədə 1 milyard 111,9 milyon manat və yaxud 6,3 dəfə azalıb. Ümumilikdə hesabat ilində qiymətli kağızlar bazarında dövriyyənin həcmi 1 milyard 863,9 milyon manat artıb və AMB notlarının azaldıcı təsiri fonunda cəmi dövriyyənin artımı tamamilə dövlət istiqrazları hesabına təmin edilib".

Bu ilin birinci yarısında isə Maliyyə Nazirliyinin istiqraz emissiyası qeydə alınmayıb. Bu şəraitdə bazardakı artımda dövlət istiqrazları üzrə repo əməliyyatlarının payı 8 milyard manatdan yuxarıdır. Bu artım Mərkəzi Bankın notları üzrə repo əməliyyatlarındakı 800 milyon manatdan yuxarı azalmanı artıqlaması ilə kompensasiya edib.

Yeri gəlmişkən, sentyabr ayından Maliyyə Nazirliyi dövlət istiqrazlarının emissiyasını bərpa edib. Ay ərzində nazirlik Bakı Fond Birjası vasitəsilə 8 istiqraz yerləşdirilməsi həyata keçirib. Bu, ilin sonunda qiymətli kağızlar bazarındakı əməliyyatların həcminin əhəmiyyətli artımını təmin edəcək.

İndi Azərbaycanın qiymətli kağızlar bazarına AYİB kimi xarici oyunçu daxil olur. Bakı Fond Birjası oktyabrın 1-də Bankın emissiya etdiyi istiqrazların yerləşdirilməsi əməliyyatının başa çatdığını elan edib. AYİB-in bu qərarı ilk növbədə Azərbaycan manatına olan etimadın göstəricisi kimi qiymətləndirilir. Belə ki, dünya neft bazarında qiymətlərin düşməsi fonunda Azərbaycanın əldə etdiyi valyuta gəlirlərinin azalması manatın məzənnəsi ilə bağlı narahatlıqları artırır. Gələn ilin dövlət büdcəsinin demək olar ki, artımsız proqnozlaşdırılması ölkədə devalvasiya ola biləcəyinə dair gözləntiləri artırır. Belə bir məqamda AYİB kimi nüfuzlu maliyyə təşkilatının qısamüddətli də olsa manatla istiqraz emissiya etməsi maraq doğurur.

**İqtisadçı-ekspert Elman Sadıqovun "Yeni Müsavat"a dediyinə görə, AYİB istiqrazları təminatsız, dəyişən faizlidir:** "Bu o deməkdir ki, Mərkəzi Bank faiz dərəcəsini dəyişərsə, istiqrazların da faizi dəyişəcək. Əsasən institutsional alıcılar üçün nəzərdə tutulub. ATİB bu istiqrazlardan əldə edəcəyi vəsaitləri Azərbaycanda maliyyələşdirəcəyi layihələrə yönəldəcək. Burada əsas müsbət məqam istiqrazların manatla yerləşdirilməsidir. Bu o deməkdir ki, onu alan investorlar üçün valyuta riskləri olmayacaq. Eyni zamanda manatla emissiya AYİB-in də istiqrazlarla bağlı hər hansı valyuta riskinin olmamasına təminat verir. Bank yaşıl enerji, kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi kimi sahələrə investisiya yatırmağı nəzərdə tutur".

**Ekspert qeyd edir ki, Azərbaycan qiymətli kağızlar bazarının hazırkı inkişaf səviyyəsi qətiyyən qaneedici ola bilməz:** "Əlbəttə ki, mövcud inkişaf səviyyəsi heç bir tərəfi qane etmir. Çünki bu bazarın inkişafını səciyyələndirən və iqtisadiyyatın özündən asılı olan amillər var. Məsələn, qiymətli kağızlar bazarı dedikdə bütün dünyada ilk növbədə səhm bazarı yada düşür. Səhm şəffaflıq, hər hansı bir şirkətin açıq bazarda təmsil olunması, əhalinin həmin şirkətlərdə payının olması deməkdir. Bu, həm də şirkətlərin bazardan investisiya cəlbi imkanı deməkdir. Səhmləri bazara çıxarılan şirkət tam şəffaf, açıq olmalı, mütəmadi olaraq detallı maliyyə hesabatını açıqlamalı, kapital cəlbində maraqlı olmalıdır. Maliyyə hesabatlılığı beynəlxalq audit qanunvericiliyinə uyğun olmalıdır. Bütün bunlar Azərbaycanda yoxdur, yalnız banklar və qismən sığorta şirkətləri səhm bazarında oynaya bilirlər. Bu da bazarın inkişafı baxımından dəryada bir damlaya bənzəyir".

❑ **Dünyan SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 177 (8787) 2 oktyabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki-mənəvi inkişafı

# Bakıda pilot layihə - dünya məktəbli avtobusu problemini necə həll edib?

## Layihə artıq fəaliyyətdə, ekspertlər isə pessimistdir - səbəb



**Oktyabrın 1-dən Bakı şəhərində məktəb avtobusları layihəsi pilot formada fəaliyyətə başlayır. Şəhər mərkəzində yerləşən müəyyən dövlət və özəl məktəblər bu layihəyə cəlb olunub. Pilot layihənin məqsədi şagirdlərin təhlükəsiz və rahat şəkildə daşınmasını təmin etməkdir.**

Layihənin həmtəsisçisi Orxan Abbasov bildirib ki, proses Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə həyata keçirilir. Onun sözlərinə görə, artıq 1 200-dən çox şagird bu xidmətə qoşulub: “Artıq 1200-dən çox şagird istifadəçimiz var. Layihə bu ildən pilot formada keçirilir. Gələn ildən etibarən digər məktəblərdə də istifadəyə veriləcək. Valideynlər mobil tətbiqi yükləyərək uşaqlarını əlavə edə, məktəblərini seçə və xidmətin qiymətləri ilə tanış ola bilərlər. Qiymətlər 100 manatdan başlayır. Qazi və şəhid ailələri üçün xüsusi endirimlər mövcuddur”.

Valideynlər yeniliyə münasibət bildirərək, təşəbbüsün həm övladları, həm də özləri üçün daha təhlükəsiz və rahat olacağını vurğulayıblar. İlkin mərhələdə layihə 8 dövlət və 3 özəl məktəbdə icra olunacaq. Xidmət 1-ci sinifdən 11-ci sinfə qədər bütün şagirdlər üçün əlçatandır. Qiymətlər məsafə, uşaq sayı və gedişin tək və ya ikitərəfli olmasına görə dəyişir.

### Dünya məktəbli avtobusu problemini necə həll edib?

AzEdu.az şagirdlər üçün xüsusi avtobus xidmətləri olan ölkələri araşdırıb. Belə ki, ABŞ və Kanadada məktəb avtobusları təhsil sisteminin ayrılmaz hissəsidir. ABŞ-də hər gün təxminən 480 min sarı məktəb avtobusu 26 milyon şagirdi məktəbə daşıyır. Bu avtobuslar xüsusi təhlükəsizlik xüsusiyyətləri ilə təchiz olunub və sarı rəngləri ilə asanlıqla tanınır. Kanadada da oxşar sistem mövcuddur, lakin şəhərlərdə daha kiçik ölçülü avtobuslar istifadə olunur.

Almaniyada isə xüsusi məktəb avtobusları nadirdir, şagirdlər əsasən ictimai nəqliyyatdan istifadə edirlər. Bəzi əyalətlər məktəb avtobuslarını təmin etsə də, bu, ümumi praktikadır. Finlandiyada isə bələdiyyələr 5 kilometrdən uzaqda yaşayan şagirdlər üçün məktəb avtobusları və ya taksi xidməti təşkil edirlər. Bu nəqliyyat vasitələri “Koulukyyti” işarəsi ilə tanınır.

Birləşmiş Ərəb Əmirliklərində məktəb avtobusları əsasən özəl məktəblər tərəfindən təmin edilir. Məsələn, Dubayda fəaliyyət göstərən "STS Group" şirkəti 2,500-dən çox avtobusla gündə 80 min şagirdi daşıyır. Honq Konqda isə kiçik yaşlı şagirdlər “nanny van” adlanan kiçik minik avtobusları ilə məktəbə aparılır. Bu nəqliyyat vasitələri əvvəllər məktəblər və sürücülər tərəfindən təşkil edilirdisə, indi hökumət tərəfindən tənzimlənir və sabit marşrutlarla fəaliyyət göstərir.

Sinqapurda isə şagirdlər əsasən ictimai avtobuslarla məktəbə gedirlər. Bəzi xüsusi avtobus xidmətləri mövcuddur, lakin bunlar, ümumiyyətlə, özəl şirkətlər tərəfindən təmin edilir və valideynlər tərəfindən ödənilir.

Ümumiyyətlə, dünyada məktəb avtobusları müxtəlif formalarda fəaliyyət göstərir. Bəzi ölkələrdə bu xidmətlər dövlət tərəfindən təmin olunursa, bəzilərində isə özəl məktəblər və şirkətlər məsuliyyət daşıyır. Məktəb avtobuslarının təhlükəsizliyi və tənzimlənməsi ölkələrdən asılı olaraq fərqlənir, lakin əsas məqsəd həmişə şagirdlərin təhlükəsiz, rahat və vaxtında məktəbə çatmasını təmin etməkdir.

### Nəqliyyat ekspertləri məktəb avtobusuna inanır, ya yox?

**Nəqliyyat üzrə ekspert Ərşad Hüseynovun** Bakupost.az-a açıqlamasına görə, şagirdlərin şəxsi avtomobillərlə daşınması şəhər nəqliyyatının yüklənməsində ciddi faktordur. Bakı ətrafında yüz minlərlə insanın məskunlaşdığı məntəqələrdə məktəb yoxdur. Elə yaşayış məntəqələri var ki, məktəb olsa da, şəraiti qənaətbəxş deyil, yaxud tədris valideynləri qane etmir.

Bu səbəbdən valideyn məcbur qalıb uşağı şəxsi avtomobili və ya taksi ilə başqa **məktəbə aparır. Bu da yollarda, xüsusən də məktəblərin yerləşdiyi ərazilərdə tıxacların yaranmasına səbəb olur**: “Məktəbli avtobuslarının istifadəyə verilməsi hər şeydən əvvəl valideynlərin vaxtına və puluna qənaət etmək deməkdir. Əgər məktəbli avtobusları olarsa, məktəblərin qarşısındakı keçilməz tıxacları görmərik. Təmayüllü və xüsusi təyinatlı məktəblərdə nəqliyyatın uşaqları məktəbə aparmasına ehtiyac ola bilər. Amma burada da xüsusi təyinatlı avtobuslardan istifadə olunmalıdır. Məktəbli avtobusları nəqliyyatın intiensiv hərəkəti, eləcə də uşaqların təhlukəsizliyi baxımından faydaıdır. Bu, bütün dünyada qəbul olunub”.

**Ekspert deyir ki, məktəbli avtobuslarında təhlükəsizlik məsələsi də önəmlidir. Eyni zamanda qanunvericilikdə nəzərdə tutulan tələblər gözlənilməlidir:** “Avtobuslara gündəlik texniki qulluq edilməli, sürücü tibbi müayinədən keçməlidir, avtobus qarajda saxlanmalıdır, sürücünün iş rejiminə diqqət etmək lazımdır. Daşıyıcı təşkilatın olması məqsədəuyğun olar. Bu kimi məqamlara xüsusi olaraq diqqət yetirilməlidir”.

**Nəqliyyat eksperti Elməddin Muradlı isə “Yeni Müsavat”a müsahibəsində bildirir ki, birmənalı olaraq məktəbli avtobusunun tıxac problemini həll edəcəyini demək olmaz:** “Dəstək kimi bir vasitədir. Tıxacın qarşısını almaq üçün çıxış yollarından biri hesab olunur. Amma mexanizmlər tapılmalıdır. Faydasız layihədirsə, heç kimə lazım deyil. Bakıda məktəb mövzusu çox həssasdır. Valideynlər yaxın məktəbdə keyfiyyətsiz təhsil görəndə uzaq məkanda məktəb axtarır. Heç kimə "bunu eləmə" demək olmaz. Elm və Təhsil Nazirliyi yarananda belə qərar çıxdı ki, şagirdlər məktəblərə qəbul edilərkən yaşayış yeri nəzərə alınsın, həmin məktəbə yaxın ərazidə yaşaması şərt qoyuldu. Amma o məsələdə də bir bazar yarandı. Valideynlər saxta arayış alırdı ki, iş yerim məktəbə yaxındır, uşaq burada oxumalıdır".

**E.Muradlının sözlərinə görə, bu, pilot layihə kimi çox uğurlu görünsə də, yarana biləcək fəsadları gözdən qaçırmaq olmaz:** “Məsələn, avtobus bir sinifdə 20 uşağı toplayıb gətirməlidir. Həmin uşaqların yarısı da məktəbdən 10-15 km aralıdadır. Bəzi valideynlər bununla razılaşıb, sonra imtina ediblər. Məktəb uzaqdır, avtobusun sürücüsü isə deyir ki, uşağı saat 5-də oyat, saat 6-da gəlib götürəcəm. Valideyn bir müddət sonra bu rejimdə uşağı məktəbə yollamaqdan imtina edib. Çünki yuxusunu ala bilməyən uşaq nə təhsil ala bilir, nə də sağlam böyüyə”.

**Müsahibimiz deyir ki, bəzən məmurlar “yuxulu vəziyyətdə” qərarlar verirlər. Bu məsələ barədə qərar veriləndə şəhərin mərkəzində problem yaradan məktəblər üçün keçərli olduğu bildirilmişdi:** “Bu məsələni xüsusi araşdırmaq lazımdır. Xüsusən də ən böyük problemi ödənişli liseylər, məktəblər yaradır. Bunlar təzə yarananda deyirdilər ki, avtobuslarımız fəaliyyət göstərəcək, uşaqlar dərsə avtobusla gedib-gələcək. Bir müddət avtobusları işlədi, sonra yoxa çıxdı. Sonra hansısa bir məmur, oliqarx, deputat bundan imtina etdi. Dedi ki, qapımda 3 maşınım, sürücüm var, mənim uşağım niyə avtobuslarda sürünməlidir ki? Düşünün ki, bu zehniyyətdəki ailədə 3 uşaq varsa, hər uşaq üçün ayrı-ayrı növbələrdə bir maşın yola çıxıb, məktəbin ərazisinə gedirsə, orada vəziyyət necə olacaq?”

## Uşaqlarda xroniki yorğunluğun səbəbi - terapevt deyir ki...



**“Uşaqlarda da xroniki yorğunluq sindromu müşahidə oluna bilər. Lakin bu, böyüklərlə müqayisədə daha nadir haldır”.**

Musavat.com xəbər verir ki, bu fikirləri Səhiyyə Nazirliyinin rəsmi Instagram hesabında keçirilən canlı yayım zamanı Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, terapevt Zakir Quliyev açıqlayıb.

Onun sözlərinə görə, bu sindrom davamlı və səbəbi izah olunmayan yorğunluqla xarakterizə olunur, ən azı altı ay davam edir və istirahətlə tam aradan qalxmır: “Uşaqlarda bu vəziyyət gündəlik həyat fəaliyyətlərinə, məktəbə davamiyyətə və dərs oxumağa ciddi təsir göstərə bilər. Ən çox rast gəlinən əlamətlər arasında gücsüzlük, diqqət və yaddaşda zəifləmə, baş, əzələ və oynaq ağrıları, yuxu pozuntuları və infeksiyalardan sonra vəziyyətin daha da pisləşməsi qeyd olunur. Səbəbləri tam dəqiqləşdirilməsə də, infeksiyalardan sonra yaranması, immun sistemində dəyişikliklər, stress və yuxu rejimində pozuntularla əlaqələndirilir”.

Nazirliyin mütəxəssis-ekspert bildirib ki, diaqnozun qoyulması çətindir, çünki oxşar əlamətlər dəmir çatışmazlığı, qalxanabənzər vəzin xəstəlikləri və ya psixoloji problemlərdə də müşahidə oluna bilər: “Müalicəsi əsasən simptomların yüngülləşdirilməsi, həyat tərzinin yaxşılaşdırılması, düzgün yuxu və qidalanma rejiminin tənzimlənməsi, həmçinin psixoloji dəstək üzərində qurulur”.

## Kolleclərin boş qalan yerlərinə qeydiyyat başlayır



**Tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə əlavə yerləşdirmə nəticəsində qəbul olunanlar üçün qeydiyyat prosesinə 2 oktyabr saat 11:00-da start veriləcək. Bu barədə Elm və Təhsil Nazirliyindən məlumat verilib.**

Namizədlər //portal.edu.az ttps://portal.edu.az// üzərindən “Ali və orta ixtisas təhsili pilləsinə təhsilalan qeydiyyatı” xidmətini seçməklə müraciət edə bilərlər. Elektron sistem üzrə qeydiyyat 9 oktyabr saat 18:00-da yekunlaşacaq.

Qeydiyyat üçün müraciət etməyən şəxslər qəbul olunanların siyahısından xaric ediləcəklər.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 177 (8787) 2 oktyabr 2025


Dmitri Medvedyev Donald Tramp

# Medvedyev yenə Trampa sataşdı: “Qaranlıq otaqda qara pişik...”

**Rusiya Təhlükəsizlik Şurası sədrinin müavini Dmitri Medvedyev ABŞ Prezidenti Donald Trampın “Rusiya sahillərinə iki atom sualtı qayığı göndərməsi” barədə sözlərini istehzalı şəkildə şərh edib.**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bununla Medvedyev Trampla avqustda dayandırdığı polemikasına yenidən qayıdıb.

O, X sosial şəbəkəsində yazıb: "X-də paylaşımlar üçün “atom sualtı qayıqları” adlı trillerin yeni epizodu. Tramp yenidən guya “Rusiya sahillərinə göndərdiyi” sualtı qayıqlardan danışır və onların “çox yaxşı gizlədildiyini” deyir. Deyildiyi kimi, qaranlıq otaqda qara pişiyi tapmaq çətindir, xüsusən də o orada yoxdursa..."

Qeyd edək ki, ABŞ lideri bir gün öncə Pentaqonda çıxışı zamanı Rusiyanın ABŞ-ni “bir qədər təhdid etdiyini”, buna cavab olaraq isə “bir-iki sualtı qayığı Rusiya sahillərinə göndərdiyini” bildirib. O, Medvedyevə “axmaq adam” da deyib.

Tramp ilk dəfə 2 avqustda iki atom sualtı qayığını Rusiya sahillərinə göndərdiyini elan edib. Bu bəyanat iyulun sonunda başlayan qarşılıqlı ittihamların davamı olub. Tramp o vaxt Medvedyevə “müflis olmuş keçmiş prezident” deyərək onu təhlükəli bəyanatlarda suçlayıb. Medvedyev cavabında ABŞ liderinin əsəbiləşməsini “Rusiyanın haqlı olduğunun göstəricisi” adlandırmış, həmçinin Trampın “ölü iqtisadiyyat” sözlərini “The Walking Dead” serialına bənzətmişdi.

Medvedyevin Trampı yenidən hədəfə alması ABŞ administrasiyasının Rusiyaya qarşı mövqeyindəki sərtləşmə fonunda baş verir. Sentyabrda Tramp “Ukrayna itirilmiş əraziləri geri qaytara bilər” deyib. Eyni zamanda Vaşinqtonun Kiyevin “Tomahawk” qanadlı raketlərinin verilməsi barədə müraciətini araşdırdığı məlum olub. Bu raketlər Rusiyanın 60-dan çox bölgəsini vura bilər.

❑ **“Yeni Müsavat”**


Kaya Kallas

# Aİ Rusiyanın milyardlarını Ukraynaya verəcəmi? - dilemma

**Avropa İttifaqı (Aİ) ölkələrinin rəhbərləri hələlik Rusiyanın dondurulmuş aktivlərinin Ukraynanın ehtiyacları üçün istifadəsi ideyası barədə ümumi fikrə gəlməyib.**

“Report” xəbər verir ki, bunu Kopenhagendə jurnalistlərə Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas deyib.

“Aİ ölkələrinin heç də hamısı planla razı deyil. Bizim hələ çox işimiz var”, - o bildirib.

Eyni zamanda K.Kallas hazırkı vəziyyətdə qərar qəbul edilməsi üçün son tarix təyin etmək istəmədiyini qeyd edib.

“Mümkün qədər tez işləməyə çalışacağıq”, - Aİ-nin ali nümayəndəsi vurğulayıb.

Qeyd edək ki, 1-2 oktyabrda Kopenhagendə Aİ dövlət və hökumət başçılarının qeyri-rəsmi görüşü, sonra isə Avropa Siyasi Birliyinin 7-ci sammiti keçiriləcək.

**“Keçən qış Rusiya təcavüzü nəticəsində Ukraynanın kritik infrastrukturunun 80%-ə qədəri dağıdıldı və ya zədələndi. Son aylarda Ukrayna rusiyalı işğalçıların yeni zərbə kampaniyasına hazırlaşmağa çalışıb”.**

# Zelenskidən gözlənilən qərar - müharibə yeni mərhələyə keçir


Volodimir Zelenski

Bunu **avstriyalı polkovnik Markus Raysner** NTV-yə müsahibəsində bildirib. Polkovnik qeyd edib ki, Ukrayna lideri Volodimir Zelenski müttəfiqlərə daha çox hava hücumundan müdafiə sistemləri və sursat verməleri üçün təzyiq göstərib. Onun sözlərinə görə, Kiyev istehsal güclərini də Rusiyanın hücum edə bilmədiyi NATO ölkələrinin ərazisinə köçürür. Ukrayna xüsusi xidmət orqanlarının məlumatlarına istinad edən Raysner həmçinin vurğulayıb ki, bu il Rusiya 30-40 min “Geran-2” dronu, 5700 ”Harpia-1" dronu, həmçinin təxminən 34 min “Gerbera” pilotsuz aparatı və imitator istehsal etməyi planlaşdırır: “Ümumilikdə təqribən 80 min zərbə və imitasiya dronu. Buna əlavə olaraq 2500-ə qədər qanadlı, ballistik və hipersəs raketi gəlir. Son hücumun videogörüntüləri göstərir ki, "Geran-2" dronları indi həm də hədəflənmiş hücumlar və yarımstansiyaların məhv edilməsi üçün istifadə olunur".

Ukrayna bu qış özünün yerdə qalan kritik infrastrukturunu qoruya, bunun üçün Qərbdən yetərli silahlar, o sırada hava hücumundan müdafiə sistemləri ala biləcəkmi? İkinci yandan, Kiyevin istehsal güclərini Rusiyanın hücum edə bilmədiyi NATO ölkələrinə köçürməsi Moskvanı qıcıqlandıra və Rusiya həmin ölkələrə zərbə vura bilərmi?

**“Yeni Müsavat”a danışan siyasi şərhçi Heydər Oğuzun fikrincə, Ukrayna artıq Qərb ölkələrindən silah-sursat almağa arxayınlaşmamalı, özünə lazım olan silahları özü istehsal etməyə çalışmalıdır:** “Çünki Rusiya-Ukrayna savaşı getdikcə Qərb ölkələrində yorğunluq yaradır və bu əhval-ruhiyyə bir müddətdən sonra açıq etirazlara çevrilə bilər. Məlumdur ki, NATO-nun əsas aparıcı qüvvəsi ABŞ-nin Ukraynanı silahla təchizatı məntiqi "silah bizdən, pulu Avropadan, istifadəsi Ukraynadan" fəlsəfəsinə söykənir. Bu isə Ukraynanın təchizatının maliyyə yükünü tamamilə Avropa ölkələrinin çiyninə yükləyir. Nəticədə savaş uzandıqca Avropa ölkələri daha çox maliyyə itkisi ilə üzləşir və hökumətlər sosial siyasətlərdən kəsib Ukraynaya daha çox maliyyə ayırmalı olurlar. Beləcə, müttəfiq ölkələrin əhalisi narazı qalır, Rusiyaya meylli partiyalara səs verirlər. Bu isə öz növbəsində liberal -qlobalist hökumətlərin mühafizəkarlarla əvəzlənməsinə gətirib çıxara bilər. Prinsipcə, Avropa ölkələrindəki bu vəziyyət ABŞ-nin yeni administrasiyasına da sərf edir. Tramp hakimiyyəti düşmən kimi gördüyü qlobalistlərin Avropada da uduzmasını arzulayır və bunu gizlətmir də. Hətta mənə elə gəlir ki, Trampın son zamanlar Rusiyaya qarşı aqressiv mövqe sərgiləməsinin başlıca səbəblərindən biri də budur - Avropadakı qlobalist hökumətləri daha çox yükləyərək nüfuzdan salmaq və ideoloji cəhətdən özünə bənzəyən mühafizəkarları iqtidara gətirmək. Nəzərə alsaq ki, Avropa ölkələri bundan əlavə, həm də ÜDM-in 5%-ni də silahlanmaya ayırmalıdır, o zaman “qoca qitədəki” mövcud hakimiyyətlərin sosial siyasətlərini tamamilə dayandırmasının və böhrana sürüklənməsinin qaçılmaz olduğunu görə bilərik.

Ukraynanın silah fabriklərini qonşusundakı NATO ölkələrinə köçürməsinin Rusiyada yaradacağı qıcığa gəlincə, məncə, bu, tamamilə mümkündür. Rusiyanın son zamanlar NATO ölkələrinə dron hücumları da göstərir ki, Moskva sözügedən alyansla aralarındakı gərginliyi artırmağa niyyətlidir. Görünür, o, Ukraynaya uduzmaqdansa, eskalasiyanı artıraraq NATO ilə üz-üzə gəlmək və sonradan masa ətrafında əyləşib ənənəvi düşməniylə dil tapmağa çalışır. Putin inanır ki, Rusiya ilə müharibəyə girib zərər görməkdən çəkinən NATO ölkələri onunla daha rahat anlaşa bilər. Odur ki, Rusiyanın dronlarla həmin ölkələrdə Ukraynaya məxsus silah fabriklərini vurması da istisna edilməməlidir".

**Siyasi şərhçi Kamran Məmmədli deyir ki, Zelenskiyə qarşı gözləntilər təkcə Ukrayna daxilində deyil, Qərb paytaxtlarında da formalaşıb:** “Çünki Ukrayna müharibəsi artıq lokal qarşıdurma deyil, beynəlxalq güclərin qarşıdurma meydanına çevrilib. Ona görə də Zelenskinin atacağı hər addım, verdiyi hər bəyanat və qərar Qərbin mövqeləri ilə sıx bağlıdır. Burada iki vacib məqamı qeyd etmək gərəkdir. Birinci Ukraynanın kritik infrastrukturu məsələsidir. Keçən qış 80 faizə qədər dağıdılmış infrastrukturun bərpası mümkünsüz idi. Deməli, indi əsas məsələ bərpa deyil, mövcud olanın qorunmasıdır. Lakin Ukrayna təkbaşına bu işin öhdəsindən gələ bilməz. Ona görə Zelenski bütün resursları hava hücumundan müdafiə sistemlərinin artırılmasına yönəldib. Bu, həm siyasi təzyiq, həm də ictimai diplomatiya vasitəsilə edilir. Çünki ABŞ və Avropada ictimai rəyin dəyişməsi Ukraynaya yardımların davamlılığına təsir göstərir. İkinci məsələ istehsal güclərinin NATO ölkələrinə köçürülməsidir. Bu, yeni mərhələdir və əslində Kiyevin rasional seçimidir. Çünki Ukrayna ərazisində hərbi-sənaye kompleksini qorumaq mümkün deyil. Amma belə bir addım Moskva üçün açıq-aşkar qıcıqlandırıcı amildir. Rusiyanın hərbi doktrinasında NATO ölkələrinin birbaşa hədəfə alınması mövcuddur. Yeni Kreml bunu qırmızı xətt kimi təqdim edə bilər. Amma burada incə məqam var ki, Rusiya NATO ölkəsinə birbaşa zərbə endirəcəksə, bu, artıq tammiqyaslı müharibənin başlanğıcı deməkdir. Kremlin bu riskə gedib-getməyəcəyi isə sual altındadır. Çünki hazırda Rusiya daha çox Ukrayna cəbhəsində resurslarını xərcləyir”.

**Siyasi şərhçi deyib ki, Markus Raysnerin açıqladığı rəqəmlər yüzminlərlə dron və minlərlə raket istehsalı Moskvanın bu qış Ukraynanı tam diz çökdürmək niyyətində olduğunu göstərir:** “Amma eyni zamanda Qərbin reaksiyası da daha sərt olacaq. Bu baxımdan, Zelenski müharibəni yeni mərhələyə keçirməyə hazırlaşır. Bir tərəfdən, ölkə daxilində müdafiəni möhkəmləndirmək, digər tərəfdən istehsalı NATO ölkələrinə çıxarmaqla həm təhlükəsizlik qazanmaq, həm də Qərbi münaqişəyə daha dərindən cəlb etmək planları var. Qarşıdakı qış Ukrayna müharibəsinin yeni, daha təhlükəli fazası olacaq. Burada söhbət artıq təkcə Kiyevin taleyindən deyil, NATO ilə Rusiya arasında birbaşa qarşıdurma riskindən gedir. Zelenskinin qərarlarının Qərb tərəfindən dəstəklənməsi Moskva üçün yeni geosiyasi təzyiq mənbəyinə çevriləcək”.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 177 (8787) 2 oktyabr 2025

# Hotel qiymətinə xəstəxanalar - tibbi sığorta işləmir?

**Milli Məclisin plenar iclasında icbari tibbi sığortanın tətbiqi ilə bağlı problemlər müzakirə olunub. Deputatlar mövcud mexanizmin vətəndaşların işini asanlaşdırmaq əvəzinə, əksinə, əlavə çətinliklər yaratdığını bildiriblər.**

**Deputat Siyavuş Novruzov** çıxışında icbari tibbi sığortanın təkmilləşdirilməsinə ciddi ehtiyac olduğunu deyib: "Birincisi, sənədləşdirmə prosesi çox mürəkkəbdir. Vətəndaş müalicəyə gedir, oradan sənəd gətir, buradan sənəd apar... İnsan xəstəxana ilə aidiyyəti qurum arasında qalmamalıdır. Mexanizm elə qurulmalıdır ki, sistem avtomatik işləsin və vətəndaşın əlavə əziyyət çəkməsinə ehtiyac qalmasın".

**Deputat xüsusilə xəstəxana xərclərinin sığortaya daxil edilməməsinin ciddi problem yaratdığını qeyd edib:** "Bu gün elə xəstəxanalar var ki, xəstəxanada qalmaq qiyməti hotel qiyməti ilə eynidir. Xəstəni əməliyyatdan sonra dərhal evə göndərmək olmaz, ən azı bir neçə gün nəzarət altında qalmalıdır. Lakin xəstəxanada qalmaq xərci sığorta tərəfindən qarşılanmır. Əksinə, çox hallarda xəstəxana xərci əməliyyat xərcini belə ötüb keçir. Hesab edirəm ki, gələcəkdə bu məsələ qanunvericilikdə öz əksini tapmalı, xəstəxana xərcləri də icbari tibbi sığortaya daxil edilməlidir".

**Siyavuş Novruzov ələvə edib ki, müəyyən ağır xəstəliklər üzrə vətəndaşlara pulsuz dərmanlar verilsə də, bu sahədə də problemlər qalmaqdadır:** "Onkologiya, şəkər, böyrək çatışmazlığı, qan xəstəlikləri kimi çox ağır xəstəliklər üçün pulsuz dərman nəzərdə tutulur. Amma bu dərmanların paylanmasında ciddi problemlər var".



Deputat həmçinin vurğulayıb ki, icbari tibbi sığortanın tətbiqi vətəndaşların sağlamlıq xidmətlərinə əlçatanlığı artırmalı olduğu halda, hazırkı mexanizm əksər hallarda onları narazı salır. Onun sözlərinə görə, sığortanın iş prinsipləri beynəlxalq təcrübə əsasında yenidən nəzərdən keçirilməli və qanunvericilikdə zəruri dəyişikliklər edilməlidir.

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan **Bakı Ağrı Klinikasının baş həkimi, invaziv ağrı mütəxəssisi Zülfüqar Yusifov** bildirib ki, dünyanın ayrı-ayrı ölkələrində sığorta siyasəti müxtəlif cür həyata keçirilir və əhalinin ehtiyaclarını ödəmə baxımından da fərqlənir: "Bu ölkələrin əksəriyyətində davamlı olaraq proseslərin təkmilləşməsi istiqamətində çalışmalar və təkliflər var. Çünki təkmilləşmənin sonu yoxdur.

Azərbaycanda icbari tibbi sığorta ilk addımlarındadır. Əlbəttə ki, belə bir vəziyyətdə çoxlu nöqsanlar və narazılıqlar gözlənilləndir. Deputatın qeyd etdikləri haqlı məsələlərdir. Pasiyentin ağrısı olur və operativ şəkildə xəstəxanaya müraciət etmək istəyir, ancaq qarşısında böyük bir maneə durur. Çünki sənədləşmə bəzən mərhələli şəkildə olur ki, bu da uzun bir vaxt alır. Bu isə kritik vəziyyətdə olan xəstəyə heç sərf etmir.

Sənədləşmə prosesinin nəzarətdə olmaq şərti ilə daha da təkmilləşməsi, əlçatan və sadə olması yaxşı olardı. Bəzi xəstəxanalarda, məsələn, universitet klinikasında pasiyent müraciət edir və yerindəcə sığorta sənədlərini alır".

**Həkim deyir ki, ağır xəstəlikdən əziyyət çəkənlər üçün apteklərin əlçatanlığı təmin olunmalıdır:** "Pasyent istənilən yerdən ona təyin olunan dərmanı ala bilməlidir. Biz elektron səhiyyəyə keçmişik və bu keçid davam edir. Burada da təkmilləşməyə ehtiyac var, proses araşdırılır və böyük ehtimalla müvafiq instansiyalar narahatlıqları aradan qaldırmaq üçün tədbir görəcək. Amma bu prosesin tezləşməsinə ehtiyac var. Dərmanların sığorta vasitəsilə xəstələr tərəfindən əldə olunması təmin edilməlidir.

Xəstəxana xərclərinə gəldikdə isə deyə bilərəm ki, sığortada müəyyən yataq günləri üçün ödəniş edilir. Göstərilir ki, hansı əməliyyatdan sonra xəstə neçə gün xəstəxanada qala bilər. Bəzən xəstəxanada əlavə qalma halları ortaya çıxa bilər. Belə halların müzakirəsi lazımdır ki, bu, xəstənin istəyi ilə, yoxsa tibbi göstərişlə baş verir. Tibbi göstərişlə baş verirsə, o zaman xəstəxana xərci sığorta tərəfindən ödənilməlidir. Çünki bütün əməliyyatlar həmişə uğurlu olmur və təyin edilən yataq günlərindən artıq xəstəxanada qalmağa ehtiyac olar.

Bəzi xidmətlərə görə franşiza tətbiq oluna bilər. Bu o deməkdir ki, müəyyən xidmətlər üçün pasiyent kiçik məbləğdə faiz ödəyə bilər. Bu, ona görədir ki, pasiyent davamlı tibbi xidmətdən sui-istifadə etməsin və ekonomik məsuliyyət daşısın.

Özəl xəstəxanalar da sığorta ilə əməliyyat olunan xəstələrin xəstəxana xərclərini çəkməlidirlər".

**Z.Yusifov bildirir ki, icbari tibbi sığortanın onkoloji xəstələrə də şamil edilməsi vacibdir:** "Onkoloji xəstəliklər həddindən artıq maliyyə tələb edir. Bütün bunların müzakirə olunaraq gələcəkdə sığorta paketlərinə daxil edilməsi düşünülməlidir.

Növbələrin çox olmasına da diqqət etmək istərdim. Bunlar sığortanın verdiyi dəstəyin keyfiyyətini aşağı salır. Pasiyent zamanında tibbi yardım ala bilmirsə, sığortanın əhəmiyyəti itmiş olur. Növbələrin aradan götürülməsi üçün lazım olan işlərin görülməsi səmərəli olar.

❑ **Şahanə RƏHİMLİ,
"Yeni Müsavat"**

# Avtobuslarda 60 qəpik fırıldağı: "Maşınkam işləmir deyə, qiymət tablosu yazmamışam"

**Dünəndən etibarən Bakı və Abşeron yarımadasında bəzi marşrut avtobus xətlərində yeni gediş tarifləri tətbiq olunmağa başlanıb. Lakin bu artım bütün avtobuslara şamil olunmadığı üçün bəzi narazılıqlar və anlaşılmazlıqlar müşahidə olunub. Bəzi avtobuslar vəziyyətdən sui-istifadə edərək gedişhaqqını olduğu kimi göstərməyiblər.**





Xatırladaq ki, paytaxt və ətraf ərazilərdə fəaliyyət göstərən marşrut avtobuslarının təxminən yarısında gediş haqqı artırılıb. Digər xətlərdə isə əvvəlki tarif - 50 qəpik - qüvvədə qalır. Elektron ödəniş üsullarından, xüsusilə "m10" və "Birbank" mobil tətbiqlərindən istifadə edən sərnişinlər yeni sistemlə bağlı narahatlıqlarını dilə gətiriblər. Onların sözlərinə görə, tətbiqlərdən bilet yükləyərkən avtomatik olaraq 60 qəpiklik tarifin təklif olunması bəzi hallarda artıq ödənişə səbəb olub. Nəticədə 50 qəpiklik xətlərdə yol gedən bir çox sərnişinlər elektron sistemdə təqdim olunan 60 qəpiklik biletləri seçdiklərini sonradan anlayaraq, bu gün 10 qəpik artıq ödəniş etdiklərini bildiriblər. 50 qəpik ödənməli olan avtobuslarda isə qiymət tabloları olmadığı üçün sərnişinlər 60 qəpik ödəyiblər. Sürücülər isə buna göz yumublar.

"Yeni Müsavat"ın əməkdaşının apardığı müşahidə zamanı əksər avtobusların nə üzərində, nə də içərisində qiymət tablosu görünməyib. Məsələn, 103 saylı avtobusda heç bir məlumat olmayıb. 50 saylı avtobusun bəzisində qiymət göstərilsə də, bəzilərində, ümumiyyətlə, yox idi. Bu siyahıya 36 saylı və 191 saylı avtobuslar da daxildir - hər ikisində qiymət tablosu yerləşdirilməmişdi.

Sürücülərdən gedişhaqqını soruşduqda isə müxtəlif reaksiyalarla qarşılaşdıq: bəziləri zarafatla "1 manatdır" dedi, bəziləri sualdan əsəbiləşdi. 141 saylı avtobusun sürücüsü isə məsələni ciddiyə almadan cavab verdi:

- Gediş haqqı neçəyədir, soruşuram.

Sualıma sərnişinlərdən biri cavab verir:

- 60 qəpikdir.

Sürücü isə əlavə edir:

- Qısa məsafə 50 qəpikdir, Mərdəkana isə bahadır.

- Bəs niyə qiymət tablosu qoyulmayıb, sərnişinlər bunu haradan bilsin?

- Maşınkam işləmir, ona görə tablonu yazmamışam, - deyə lağlağı edərcəsinə irişir.

Oradan ayrılıb 49 saylı avtobusa daxil oluram. Burada gedişhaqqı kartla ödənilir. Soruşuram:

- Gediş haqqı nə qədərdir?

Sərnişinlərdən biri deyir:

- 60 qəpik.

Sürücü isə düzəldir:

- Yox, 50 qəpikdir.

Tablo ilə maraqlanıram:

- Bəs niyə qiymət tablonuz yoxdur?

Sürücü təəccüblə üzümə baxaraq cavab verir:

- Tablo? Hansı tablo?

Bu anda arxadan sərnişinlərdən biri səslənir:

- Ay xanım, narahat olmayın, 50 qəpikdir, gəlin minin.

**Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov "Yeni Müsavat"a açıqlamasında deyib ki, bu cür sui-istifadə halları yolverilməzdir:** "Yeni qaydalardan da məlumdur ki, köhnə avtobuslar, nağd ödəmə ilə çalışanlar, dizel mühərriki ilə işləyən avtobuslarda gediş haqqı yüksəlməyib. Onlarda gedişhaqqı 50 qəpik olaraq qalır. Ümumiyyətlə, bütün avtobuslarda qiyməti göstərən tablo mütləq olmalıdır. Əgər bilərəkdən hansısa daşıyıcı şirkət və ya sürücü 50 qəpik olduğunu bildirən tablonu çıxarıbsa, müvafiq qurumlar bu məsələ ilə bağlı sanksiya tətbiq etməlidir". **Ekspert həmçinin əlavə edir ki, burada məsuliyyət təkcə ictimai nəqliyyatı tənzimləyən qurumların deyil:** "Bu məsələyə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti də qarışmalıdır. Çünki bu, istehlakçı hüquqlarının pozulmasıdır. Həm daşıyıcı şirkət, həm də sürücü cərimələnə bilər".

Bakı və Abşeron yarımadasında marşrutlarla bağlı bu cür qeyri-şəffaflıq sərnişinləri çaşqın vəziyyətə salır. Sürücülərin qeyri-ciddi münasibəti, qiymət tablolarının olmaması, tətbiqlərdə yanlış tariflərin göstərilməsi bir daha sübut edir ki, nəzarət mexanizmləri ya yoxdur, ya da işləmək istəmir. Bu isə gündəlik avtobusdan istifadə edən sadə sərnişində üçün həm maddi, həm də əsəb baxımından ciddi narahatlıq doğurur.

❑ **Afaq MİRAYİQ,
"Yeni Müsavat",
Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 177 (8787) 2 oktyabr 2025



## Oğlundan Ramiz Quliyevin vəziyyəti ilə bağlı açıqlama: "Huşu gedib gəlir"

**"Atamın səhhətində müsbətə doğru irəliləyiş var. Mütəmadi olaraq analizlər götürülür. Böyrəyi ilə bağlı nəticələr yaxşı çıxıb. Ağciyərində də problemlər var idi, onlar da stabil vəziyyətə gətirilib".**

Bunu Musavat.com-a Xalq artisti, tarzən Ramiz Quliyevin oğlu, Əməkdar artist Əyyub Quliyev deyib.

Onun sözlərinə görə, tarzən bu gün (dünən - red.) nefroloq müayinəsindən keçəcək: "Dünən dializ etdilər, yəqin ki, bu gün də yenidən edəcəklər. Ondan sonra nefroloq baxaraq qərar verəcək. Hazırda nəzarət altındadır, kritik səviyyəni keçib, həyatı üçün yaranmış təhlükə artıq arxada qalıb".

Ə.Quliyev bildirib ki, atası 10 il əvvəl işemik insult keçirib və bu məsələ ilə bağlı da müayinədən keçirilib: "Beyin yoxlanıldı, yeni insult ocaqları tapılmadı. Hazırda nəzarətdədir. Atamın huşu tam üstündə deyil. Ona sedativ dərmanlar verilir deyə yuxulu vəziyyətdə olur, huşu gedib-gəlir. Hemodializ zamanı sakitləşdirici preparatlar da tətbiq olunur".

Xatırladaq ki, Xalq artisti Ramiz Quliyev böyrək çatışmazlığından əziyyət çəkir. Bir neçə gün əvvəl səhhətinin pisləşməsi səbəbindən təcili olaraq Mərkəzi Gömrük Hospitalına yerləşdirilib. Hazırda tarzən xəstəxananın reanimasiya şöbəsində müalicəsini davam etdirir.

❑ **Şahanə RƏHİMLİ**
**"Yeni Müsavat"**



## Azərbaycana turist axını 2%-ə yaxın azalıb

**Bu ilin yanvar-avqust aylarında Azərbaycana 182 ölkədən 1 milyon 720,5 min və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 1,6% az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.**

"Report" bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.

Məlumata görə, gələnlərin 25,5%-i Rusiya, 16,9%-i Türkiyə, 7,8%-i İran, 7,3%-i Hindistan, 4,6%-i Səudiyyə Ərəbistanı, 4,1%-i Gürcüstan, 4%-i Qazaxıstan, 3,4%-i Pakistan, 2,4%-i Çin, 2,2%-i Özbəkistan, 2,1%-i İsrail, 1,8%-i Birləşmiş Ərəb Əmirlikləri, 1,4%-i Ukrayna, hər birindən 1,2% olmaqla Türkmənistan və Küveyt, 1%-i Belarus və 13,1%-i digər ölkələrin vətəndaşları olub, 66,2%-ni kişilər, 33,8%-ni qadınlar təşkil edib.

1 il əvvələ nisbətən Tacikistandan gələnlərin sayı 1,9 dəfə, İsraildən - 1,7 dəfə, Yaponiyadan - 1,5 dəfə, Çindən - 1,5 dəfə, İordaniyadan - 48,7 faiz, Qırğızıstandan - 32,9 faiz, Özbəkistandan - 27,8 %, Qazaxıstandan - 19,4%, Pakistandan - 17,2%, Kanadadan - 17,1%, Niderlanddan - 16,5%, Almaniyadan - 15%, ABŞ-dən - 14,5%, İtaliyadan - 12,7%, Böyük Britaniyadan - 10,6% artıb.

Son 1 ildə Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 7,5% artaraq 73 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 6,3% azalaraq 287,8 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 6,1% azalaraq 600,9 min nəfər olub, digər ölkələrdən gələnlərin sayı isə 3,5% artaraq 758,8 min nəfər təşkil edib.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 76%-i hava, 22,6%-i dəmir yolu və avtomobil, 1,4%-i isə dəniz nəqliyyatından istifadə edib.

# Dönər problemi dönə-dönə aktuallaşır - standartlara riayət olunmur

## Eyyub Hüseynov: "İstehlakçı sənədə baxanda dərhal bilməlidir ki, bu dönər hansı müəssisəyə məxsusdur"

**Türkiyə Avropa İttifaqı ölkələrində dönər kababının hazırlanması üçün ciddi standartların tətbiqi təşəbbüsündən imtina edib.**



2022-ci ildə Türkiyə dönər kababına "Ənənəvi ixtisas zəmanətli" statusunun verilməsi üçün Avropa Komissiyasına ərizə vermiş, dönər kababın hazırlanması üçün ciddi qaydalar tələb etmiş, bu olmadan onun Aİ-də satışının qadağan olunacağını bildirmişdi.

Ərizə təsdiq edilsəydi, icazə verilən inqrediyentlərin çeşidi ciddi şəkildə məhdudlaşdırılacaqdı və Almaniyanın kabab sənayesi bundan təsirlənəcəkdi.

Burada önəmli detal dönərin hazırlanması qaydaları ilə bağlıdır. Məlum olduğu kimi, Azərbaycanda dönər-kabab adlandırılan qida məhsulundan tez-tez zəhərlənmələr olur. Ümumiyyətlə, Azərbaycanda dönərdən zəhərlənmə hallarının son bir ildə artması bu qidanın hazırlanması və satışına nəzarətin yetərli olmaması problemini gündəmə gətirir. Misal üçün, 2024-cü ilin oktyabr ayında Tovuzun Qovlar qəsəbəsində yerləşən "Köz dönər" adlı dönərxanada toyuq dönəri yedikdən sonra 18 nəfər zəhərlənmə diaqnozu ilə xəstəxanaya yerləşdirilib. Bu ilin fevral ayında Şəmkir rayonunda 3-11 yaş arası uşaqlar da daxil olmaqla, 9 nəfərin dönərdən zəhərlənməsi faktı qeydə alınıb.

Oxşar hal Zaqatalada da baş verib. Eyni qidadan 1999, 2007 və 2016-cı il təvəllüdlü şəxslərin zəhərləndiyi bildirilib.

2025-ci ilin iyun ayında Tovuzda baş verən daha ciddi hadisə zamanı 28 nəfər dönərdən zəhərlənmə şübhəsi ilə xəstəxanaya aparılıb. Araşdırmalara əsasən, məhsulun hazırlanmasında istifadə olunan ətin keyfiyyəti və dönərin saxlanma şəraiti ciddi pozuntularla müşahidə olunub. Eyni ay ərzində Naxçıvanda yerləşən "Kassap Döner" adlı dönərxanada 17 nəfərin zəhərlənməsi xəbəri yayılıb.

Qida təhlükəsizliyi üzrə müfəttişlər hadisənin səbəbi kimi saxlanma şəraitindəki nöqsanları, temperatur rejiminin pozulmasını və gigiyenik qaydalara əməl edilməməsini qeyd etdilər. Bu kimi halların təkrarlanması dönər sektorunda sistemli və sertifikatlaşdırılmış nəzarət mexanizmlərinin vacibliyini bir daha ortaya qoyur. Ət məhsullarının mənşəyi, saxlanma temperaturu, istifadə olunan marinadların tərkibi, hazırlanma texnologiyası və satıcıların gigiyenik bilik səviyyəsi kimi faktorlar ciddi şəkildə tənzimlənməlidir. Əks halda, belə zəhərlənmə halları gələcəkdə daha geniş miqyas ala və insan həyatı üçün ciddi təhlükə yarada bilər.

Bu baxımdan, dönərin keyfiyyət standartları ilə bağlı dəyişikliklərin vaxtı deyilmi?

**İstehlakçıların hüquqlarının müdafiəçisi Eyyub Hüseynov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb**: "Hələ Azərbaycanda Dövlət Standartlaşdırma Komitəsi olanda dönərin standartlarını hazırladı. O standartlar bu gün də qüvvədədir - dönərxananın böyüklüyü, orada istifadə olunan məhsullar və sairə. Təəssüf ki, ölkədə biznes və istehlakçı siyasətində balanssızlıq müşahidə olunur. Biznes qurumlarının müəyyən toxunulmazlığı var, istehlakçıların maraqlarının müdafiəsi isə ikinci planda qalır. Belə şəraitdə bəzi sahibkarlar istədiklərini edərək istehlakçı hüquqlarını pozurlar.

Bu xüsusda ən çox narazılıq doğuran məsələlərdən biri dönərdən baş verən kütləvi zəhərlənmələrdir. Xüsusilə qida təhlükəsizliyi standartlarının zəif tətbiqi ictimai narahatçılığı artırır. Halbuki vaxtilə ölkədə müəyyən normativlər mövcud idi: dönər üçün istifadə edilən ət əvvəlcə şişə keçirilir, -40 dərəcədə "şok dondurma" prosesindən keçirilərək bakteriyalardan təmizlənir, sonra isə xüsusi qablaşdırma ilə "soyuq zəncir" prinsipi əsasında satış məntəqələrinə çatdırılırdı. Bu qaydaları tətbiq edən yalnız iki müəssisə fəaliyyət göstərir. Lakin aparılan araşdırmalar göstərir ki, ölkədə dönərxanaların böyük əksəriyyəti, ümumiyyətlə, həmin iki müəssisədən məhsul almır. Halbuki onlar çox bahalı avadanlıqlarla təchiz olunmuş, yüksək standartlara cavab verən istehsal müəssisələridir. Təəssüf ki, bu müəssisələr Azərbaycanın dönər bazarını əhatə edə bilməyib. Nəticədə bəzi dönərçilər həmin müəssisələrin adından sui-istifadə edirlər: dönəri oradan aldıqlarını göstərən kağızı divara asırlar, lakin əslində məhsulu özləri - gecə hazırladıqları ətlə düzəldirlər. İstehlakçı isə həmin kağıza baxanda ayırd edə bilmir ki, təqdim olunan dönər həqiqətən sertifikatlı məhsuldur, yoxsa saxta. Bu da qida təhlükəsizliyi ilə bağlı ciddi risklər yaradır".

**Eyyub Hüseynov qeyd edir ki, istehlakçı üçün aydın mexanizm olmalıdır:** "Müştəri asılmış sənədə baxanda dərhal bilməlidir ki, bu dönər hansı müəssisəyə məxsusdur və etibarlıdır. Təəssüf ki, hazırda yalnız baytarlıq arayışı yetərli sayılır və bu sənəd də hər zaman real vəziyyəti əks etdirmir. Məsələ təkcə keyfiyyətlə də bitmir. Mən bir neçə Avropa ölkəsində dönər yemişəm, dad baxımından onların heç biri Türkiyə dönərindən üstün deyil. Azərbaycanda isə problem təkcə dadla bağlı deyil, həm də gigiyena ilə bağlıdır, elə hallar olur ki, müştəriyə verilən çörək əvvəlcə əl yuyulmadan toxunulur və bu da əlavə narazılıq doğurur.

**E.Hüseynovun sözlərinə görə, dönərdən zəhərlənmələrin əsas səbəbi təkcə ətlərin keyfiyyətsizliyi deyil:** "Məsələn, mal əti zəhərlənmə səviyyəsinə çatanda pis qoxumağa başlayır, kiflənir, ona heç kim yaxın dura bilmir və bu zaman zəhərlənməyə səbəb ola bilər. Toyuq əti isə çox tez çirklənəndir. Ona görə də toyuq dönərlərindən çox tez-tez zəhərlənmələr baş verir. Bu işin də qarşısı, təəssüf ki, alınmır. Əsas məsələ burada qoyulan gigiyenik qaydalardır. Məsələn, verilən mayonezin açıldıqdan sonra saxlanma müddəti 4-5 saatdan artıq deyil. Amma biz görürük ki, dönərxanalarda mayonez qabları gətirilir, açıq saxlanılır və uzun müddət istifadə olunur. Eyni zamanda bu gün hazırlanan dönərin sabaha saxlanılması da ciddi problemdir. Belə dönərlər artıq çürüməyə başlayır. Ona görə də dönər biznesi elə qurulmalıdır ki, sabaha dönər qalmasın. Standartlar daha da sərtləşdirilməlidir".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Adnana görə çətinliyə düşən uşaqlar - 30-dan çox uşağın futbol karyerası sual altındadır

**Artıq iki ildən çoxdur ki, "Marset" Futbol Akademiyası (İspaniya) ilə ASTA (Azerbaijan Sport Talents Academy) arasında əməkdaşlıq çərçivəsində 30-dan çox azərbaycanlı uşaq bu akademiyada futbol oynayır. Lakin iş adamı Adnan Əhmədzadənin həbsindən sonra "Marset" azərbaycanlı uşaqları geri göndərmək qərarı verib.**

Buna səbəb ASTA-nın növbəti ay üçün ödənişləri etməməsidir. Oradakı uşaqların valideynlərinə mövcud duruma bağlı bildiriş verilib. Ehtimal var ki, "Marset" ən istedadlı bir neçə nəfəri saxlasın (Sport.al.az).

ASTA-nın rəhbəri Rafael Bünyatov açıqlamalarında bu günə qədər bütün xərclərin Adnan Əhmədzadə tərəfindən qarşılandığını deyib. İş adamının həbs olunması ilə ödənişlər dayandırılıb.

Bəs balaca futbolçuların taleyi necə olacaq? Aylıq nə qədər məbləğdən söhbət gedir? Dövlət onu qarşılaya bilərmi?

**Tanınmış idman yazarı Natiq Muxtarlı "Yeni Müsavat"a dedi ki, futbol akademiyasında çarəsiz durumda qalan uşaqları AFFA dərhal nəzarətə götürməlidir:** "Bu uşaqların 80 faizi Azərbaycanın aşağı yaş millilərində çıxış edir. Onlar milliyə çağırılırlarsa, deməli, istedadlıdırlar. Bu uşaqları taleyin ümidinə buraxmaq olmaz. Adnan Əhmədzadə həbs olunub, amma dostları azadlıqdadır. Özləri də AFFA-ya rəhbərlik edirlər. AFFA-nın əksər rəhbər şəxsləri, o cümlədən prezident Rövşən Nəcəf Adnanla yaxın dost olub. O, bu layihə onların razılığı ilə həyata keçirilib. İndi AFFA rəhbərliyi özünü görməzliyə vura bilməz. Məndə olan məlumata görə, "Barselona"da hər bir uşağın illik xərci üçün 30 min avro tələb olunur. Yəni təxminən 900 min avro bütün uşaqların illik xərcinə bəs edər. Santuşa və dəstəsinə verdikləri pulun yanında 900 min nədir ki? AFFA yığma komandaya il ərzində 10 milyon manat xərcləyir. Bu vəsait kəskin azaldılmalıdır. Belə yığma üçün il ərzində 2-3 milyon manat vəsait bəsdir. Qalan pul uşaq futbolunun inkişafına, infrastrukturun qurulmasına yönəlməlidir. O vəsaitin 2 milyon manatı da "Barselona"dakı uşaqlara sərf olunmalıdır. Onlar Azərbaycan futbolunun gələcəyi hesab olunurlar. Layihəni yarımçıq saxlamaqla 30 uşağın gələcəyi baltalanır. Həmin uşaqlar "Barselona"da həm də təhsil alırlar. Layihə dayandırılsa, onların təhsilləri ilə bağlı da ciddi problemlər yaranacaq. Məlumata görə, "Barselona"dakı akademiya azərbaycanlı uşaqlara illik təhsil haqqında güzəşt etməyə də hazırdır. AFFA təcili olaraq ora nümayəndə göndərməlidir, danışıqlar aparmalı və həll yolları tapılmalıdır. AFFA prezidenti Rövşən Nəcəf bu məsələni nəzarətinə götürməli, problemi həll etməlidir".



**İdman mütəxəssisi Kənan Məstəliyev bu layihəni futbolumuzun gələcəyi üçün önəmli hesab edir:** "Məbləğ barədə məlumatım yoxdur, çünki bunu açıqlamırdılar. "Marset" layihəsi çox yaxşı, ölkə futbolunun gələcəyinə töhfə verəcək layihədir. Onun vasitəsilə yeniyetmə oyunçularımız ölkə xaricində təcrübə qazanmaq, Avropa futbolunun nəfəsini yaxından hiss etmək imkanı qazanırlar. Ora yollanan uşaqların arasında aşağı yaş qrupları üzrə millimizin formasını geyinənləri var. İndi onlar geri qayıtmalı, karyeralarını Azərbaycanda davam etdirməli olacaqlar. Bu, heç də yaxşı olmadı, çünki ölkəmizdə gənc futbolçuların akademik inkişafı üçün, demək olar ki, şərait yoxdur. Ümid edirəm ki, müvafiq qurumlar bunu nəzərə alaraq lazımi addımları atmağa, futbolçularımızın inkişafına dəstək olmağa çalışacaqlar".

Qeyd edək ki, Adnan Əhmədzadənin həbsindən sonra idman yazarlarından Anar Şabanoğlu "Azərbaycan futbolunda "zəlzələ" başlıqlı yazısında belə qeyd edib: "Adnan Əhmədzadənin həbsi Azərbaycan futbolunda da növbəti "zəlzələyə" səbəb olacaq. Bakıda açılması planlaşdırılan "Barselona" akademiyası, "Marset"dəki uşaq futbolçularımız, ASTA Mingəçevir, "Kəpəz"...

Bu layihələrə, klublara sponsorluqda Adnan Əhmədzadənin adı hallanırdı.

"Marset"dəki uşaqların aqibəti necə olacaq?"

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Kompüter oyununa görə bir ailə məhv edildi - şokedici olayın tək dərsi



**Pakistandakı Lahor məhkəməsi 17 yaşlı Zain Əlini anası, qardaşı və iki bacısını qətlə yetirdiyinə görə 100 il həbs cəzasına məhkum edib. Gənc hər bir cinayətə görə dörd ömürlük həbs cəzası alıb və günahını etiraf edib.**

Polisin məlumatına görə, faciə Əlinin bir neçə saat PUBG oynadıqdan sonra oyunun uğursuzluğu və anasının danlağına görə özündən çıxmasından sonra baş verib. O, tapança ilə 45 yaşlı anasını, 15 və 20 yaşlı iki bacısını və 20 yaşlı qardaşını güllələyib.

Hakim cinayətin virtual reallığın qohumluq əlaqələrindən daha güclü olduğunu sübut edən oyun asılılığının acı nəticəsi olduğunu vurğulayıb.

Məlumdur ki, Azərbaycanda da kompüter oyunları uşaqlar və yeniyetmələr arasında populyardır. O zaman valideynlər daha çox nələrə diqqət etməli, necə davranmalıdır ki, belə oyunlara görə ailədə problemlər yaşanmasın?

Mövzu ilə bağlı **psixoloq Azad İsazadə** "Yeni Müsavat"a danışıb. Psixoloq qeyd edib ki, dünyada çox az hallarda kompüter oyunları qətlə gətirib çıxarır: "Bu gün milyonlarla uşaq dünyada kompüter oyunları oynayır. Bu, artıq qlobal miqyasda kütləvi reallığa çevrilib. Ancaq bəzi hallarda medianın da qabartdığı kimi, ayrı-ayrı uşaqlar kompüter oyunlarının təsiri altında ailə üzvlərinə, yaxınlarına qarşı aqressiv davranışlar göstərir və hətta faciələr baş verir. Əslində burada məsələni yalnız oyunlarla əlaqələndirmək düzgün olmaz. Çünki problemin kökü uşağın psixoloji vəziyyətində, tərbiyə prosesində və valideynin diqqətsizliyində gizlənir.

Əgər uşaq vaxtında valideyn nəzarəti görməyibsə, emosional boşluqları doldurulmayıbsa, sosial həyata deyil, virtual dünyaya üz tutubsa, onda risklər də artır. Bu halda kompüter oyunları uşağın daxilindəki pozğunluğu üzə çıxaran vasitəyə çevrilir. Başqa sözlə, oyun bir səbəb yox, sadəcə, alət olur".

**Psixoloq qeyd edib ki, kompüter oyunlarının uşaqlara təsiri eyni deyil:** "Onlar arasında həm müsbət, həm də mənfi təsirli oyunlar var. Müsbət təsirli oyunlar məntiqi düşüncəni inkişaf etdirən, yaradıcılığı stimullaşdıran, komanda işi və strateji planlama bacarıqlarını gücləndirən oyunlardır. Mənfi təsirli oyunlar isə aqressiya, zorakılıq və düşmənçilik hissləri aşılayan, uşağın real həyatdan uzaqlaşmasına səbəb olan oyunlardır.

Bu səbəbdən valideynlərin əsas vəzifəsi uşağın hansı oyunu oynadığını izləməkdir. Burada nəzarət qadağa ilə qarışdırılmamalıdır. Əksinə, uşağa seçim imkanı vermək, amma eyni zamanda ona sağlam sərhədlər qoymaq lazımdır".

Azad İsazadə qeyd edib ki, müsbət təsirli oyunlara belə valideynlər mütləq şəkildə nəzarət etməlidir:

"Valideynlər mütləq şəkildə bu suallara cavab tapmalıdır: Uşaq hansı oyunu oynayır? Oyun uşaqda hansı emosiyalar yaradır - sevincmi, əsəbmi, aqressiyamı? Oyun uşağın yuxusuna, dərslərinə, gündəlik həyatına necə təsir edir?

Əgər uşağa sərbəstlik verilsə, o, saatlarla oyun oynayar. Əslində bu, təbiidir. Bizim uşaqlığımızda da imkan olsaydı, küçədə saatlarla futbol oynayardıq. Lakin valideynlərimiz buna icazə vermirdi - əvvəl dərslərimizi edib, sonra oyun oynaya bilərdik. Bu gün də eyni prinsip tətbiq olunmalıdır: uşaq yaxşı oyun da oynasa, vaxt limiti olmalıdır. Çünki uzunmüddətli oyun beyin fəaliyyətinə, psixoloji balansa və hətta fiziki sağlamlığa təsir göstərir".

**Psixoloq bildirir ki, son illərdə kompüter oyunları ilə bağlı problem yalnız uşaqlarla məhdudlaşmır:** "Xüsusilə böyüklər arasında internet kazinolara, qumar oyunlarına aludəçilik halları sürətlə artır. Artıq hər həftə bu məsələdən əziyyət çəkən azı bir neçə insan müraciət edir. Bu, ailələrin dağılmasına, maliyyə böhranına və psixoloji gərginliyə gətirib çıxarır.

Beləliklə, kompüter oyunları həyatın ayrılmaz reallığıdır. Onları tamamilə qadağan etmək mümkün deyil, həm də lazım deyil. Əsas məsələ nəzarət, balans və düzgün istiqamətləndirmədir. Uşaq oyun oynayarkən həm əylənməli, həm də inkişaf etməlidir. Valideynin məsuliyyəti isə uşağın oyun dünyasında itib-batmasına imkan verməməkdir".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**



# Okan Buruk "Liverpul" üzərindəki qələbəni şərh edib

**"Qalatasaray"ın baş məşqçisi Okan Buruk "Liverpul" üzərində qazanılan qələbəni (1:0) şərh edib. QOL.az xəbər verir ki, Çempionlar Liqasının Liqa mərhələsinin 2-ci turunun İstanbulda keçirilən oyunundan sonra təşkil edilən mətbuat konfransında Okan Buruk deyib:**

"Düşünürəm ki, həm oyun, həm də atmosfer çox gözəl idi. İlk növbədə bu qələbənin əsas memarı olan futbolçularıma təşəkkür edirəm. Əvvəldən axıradək diqqətli və konsentrasiyalı oldular. Oyuna daxil olan və ya meydandan çıxan futbolçular arasında heç bir fərq olmadı. Bu qələbə həm bizim, həm də Türkiyə üçün prestij baxımından çox önəmlidir. Türk komandalarının nələr edə biləcəyini göstərdik. Üstəlik, "Liverpul"dan qol buraxmadan oyunu başa vurmaq da çox önəmli idi".

Okan Buruk zədələnən futbolçusu Viktor Osimhen barədə da danışıb: "Osimhen yorğunluq yaşadı, ayağına qıcolma oldu. Ciddi problem olduğunu düşünmürəm".

"Salahın əsas heyətdə oynamayacağını bilirdik".

51 yaşlı mütəxəssis deyib ki, rəqibdən rotasiya gözləyirmiş: "Amma buna tam olaraq rotasiya da demək olmur. Salahın əsas heyətdə oynamayacağını əvvəlcədən bilirdik. Məncə, ən böyük fərq də buradadır. Futbolçular arasında böyük fərqlər yoxdur, amma Salahın yoxluğu ciddi fərq yaradır.

Biz analizlərimizi etmişdik. Necə müdafiə olunacağıq, necə hücum edəcəyik. "Qalatasaray" öz meydanında oynadığı hər oyunda öz ruhunu ortaya qoymalıdır. Sağ cinahda Singo ilə başlayırıqsa, Gakpoya qarşı güclü olması vacibdir.

Son oyunla müqayisədə 5 futbolçunu dəyişdik. Məncə, start "11"liyi çox önəmlidir. Eyni zamanda oyuna sonradan daxil olacaq futbolçular da böyük əhəmiyyət daşıyır. "Liverpul" 90 dəqiqə oynayan bir komandadır. Hətta 2:0 geridə olduqları oyunları belə 2:2-yə gətirdiklərini gördük.

Bu mövsüm onlarda boşluqlar var. Ola bilsin ki, bu, bizim boy ortalaması baxımından ən uzun heyətimizdir - 7 futbolçumuz hündürdür.

Oyunun bəxti, şansı da, təbii ki, çox vacibdir. Meydanda sərtliyimizi göstərməyimiz önəmlidir. Onların "Nyukasl"la oyununda "Nyukasl"ın tətbiq etdiyi pressinqi gördük. Biz də rəqibə açıq şəkildə təzyiq hiss etdirməliydik. Çünki keçidlərdə boşluq verirdilər".

YENİ MÜSAVAT

Son səhifə

N 177 (8787) 2 oktyabr 2025

Oktyabr


# Erkən qocalma ilə bağlı gözlənilməz səbəb aşkarlandı



**Yeniyetmə yaşlarında ataları siqaret çəkməyə başlayan insanların gözlənildiyindən daha tez qocaldıqları məlum olub. Bu nəticəyə Norveçin Bergen Universitetinin alimləri gəliblər. Təxminən 900 nəfərin iştirak etdiyi təhlil göstərib ki, ataları 15 və ya daha gənc yaşda siqaret çəkməyə başlayan insanların bioloji yaşları faktiki yaşlarından orta hesabla 9-15 ay daha irəlidədir. Bu nəticə xərçəng, artrit və demensiya da daxil olmaqla, yaşla bağlı xəstəliklərin riski ilə əlaqələndirilən, DNT-dəki dəyişiklikləri ölçən "epigenetik saat" metodu ilə müəyyən edilib.**

Alimlərin fikrincə, yetkinlik dövründə siqaret çəkmək inkişaf edən spermatozoidlərə zərər verir və bu dəyişikliklər gələcək nəsillərə ötürülür. Maraqlıdır ki, ananın hamiləlikdən əvvəl siqaret çəkməsi zamanı belə təsir müşahidə olunmayıb. Tədqiqatçılar vurğulayırlar ki, yeniyetmələrin siqaret və ya veyp istifadəsi yalnız onların öz sağlamlıqlarına deyil, həm də gələcək övladlarının sağlamlığına mənfi təsir göstərə bilər.

## ABŞ Konqresinə hücum etmiş "şaman" 40 trilyon dollar təzminat istəyir



**2021-ci ilin yanvarında ABŞ Konqres binasına hücum zamanı geyiminə görə "şaman" kimi tanınan Ceykob Çensli ABŞ Prezidenti Donald Trampa, İsrailə, bir sıra dövlət və özəl qurumlara qarşı 40 trilyon dollar məbləğində iddia qaldırıb. Oxu.Az-ın "Phoenix New Times" nəşrinə istinadən verdiyi xəbərə görə, Çenslinin 26 səhifəlik iddiasında Tramp, Federal Ehtiyat Sistemi, Milli Təhlükəsizlik Agentliyi, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, İsrail, İlon Maskın şirkəti "X", DARPA və "Warner Bros" studiyasına qarşı ittihamlar var.**

"Şaman" iddia edir ki, bu təşkilatların hamısı amerikalıların konstitusiya hüquqlarını sistemli şəkildə pozmağa yönəlik sui-qəsddə iştirak ediblər. O, ABŞ-nin milli borcunu ödəmək üçün 38 trilyon dollar, infrastrukturun bərpası üçün daha bir trilyon, öz əqli, emosional və mənəvi iztirabları üçün daha bir trilyon pul istəyir. Xatırladaq ki, "şaman" 2021-ci ildəki iğtişaşlara görə bir azadlıqdan məhrum edilmiş, əlavə olaraq 2 000 dollar cərimələnmişdi.

O, 2023-cü ilin martında azad edilib.



## Çay və kofe ilə dərman içmək niyə zərərlidir?

**Mütəxəssislər xəbərdarlıq edirlər ki, dərmanların çay, meyvə şirəsi və ya kofe ilə qəbulu orqanizmə ciddi zərər verə bilər. Səbəblər isə fərqlidir:**

Çay: Çayın tərkibindəki taninlər bəzi dərmanların təsirini azalda bilər. Xüsusən də dəmir preparatları ilə içildikdə, dəmirin bədənə sorulmasını əngəlləyir.

Meyvə şirələri: Portağal, qreypfrut, alma və digər turşulu şirələr dərmanların qaraciyərdə parçalanma prosesinə təsir edərək onların ya çox güclü, ya da zəif təsir göstərməsinə səbəb olur. Xüsusilə qreypfrut şirəsi bir çox ürək və təzyiq dərmanları ilə təhlükəli qarşılıqlı təsir yaradır.

Kofe: Kofein bəzi dərmanların yan təsirlərini artırır. Məsələn, sakitləşdirici və ya ürək-damar dərmanları ilə içildikdə təzyiqdə oynama, ürəkdöyünmə və yuxusuzluq yarada bilər.

Həkimlər dərmanların yalnız adi su ilə qəbul edilməsini tövsiyə edirlər. Bu halda həm dərmanın təsiri azalmaz, həm də gözlənilməz yan təsirlərin qarşısı alınar.

## Pişiyi sığallamaq baha başa gəldi: Maqadanda 10-dan çox insan virusa yoluxdu

**Rusiyanın Maqadan vilayətində xəstə heyvanla təmasdan sonra ciddi virus infeksiyası aşkar edilib. Belə ki, bir pişiyi sığallamaq 10-dan çox insanın virusa yoluxmasına səbəb olub. Bu barədə regionun səhiyyə naziri Aleksandr Vitko bəyan edib. Bildirilib ki, əvvəlcə uşaqlar pişiklə oynayıblar, daha sonra isə infeksiya böyüklərə keçib. Pasiyentlərin bir qismi stasionar müalicə üçün xəstəxanaya yerləşdirilib. Hazırda zərərçəkənlər dermatoloqların nəzarəti altında müalicə alırlar. Nazir əllərini tez-tez yumağı və uşaqlara da bunu xatırlatmağı tövsiyə edib.**



## Misirdə dəhşətli hadisə: bəy öz toyunda rəqs etdiyi yerdə öldü

**Misirin Asuan vilayətində baş verən faciəli hadisə toy mərasimini yasa çevirib. Belə ki, bəy Əşrəf Əbu Hakam öz toyunda rəqs edərkən qəflətən ölüb. Qonaqlar dərhal ona kömək etməyə çalışsalar da, bütün səylər nəticəsiz qalıb, bəyi özünə gətirmək mümkün olmayıb. Həkimlər sonradan faciəli ölümün qəfil ürək dayanması olduğunu təsdiqləyibləр.**

## Bunları bilirsinizmi?

* Xəstələnməyən yeganə heyvan köpəkbalığıdır.
* Bir ildə dənizlərdən tutulan balıqların çəkisinin üç qatı dənizlərə atılır.
* Tibetdə çay fincanını iki əllə tutmamaq hörmətsizlikdir.
* Lobsterlərin mavi qanı var.
* Köstəbək bir gecədə 90 metrlik tunel qaza bilir.
* Bir ilbizin dişlərinin sayı 25 minə çata bilər.
* İnsan bədənindən 30 dəqiqədə çıxan enerji ilə 4 litr su qaynatmaq olar.
* İnsan bədənində şimpanzedə olan qədər tük var. Lakin onların çoxu görünmür.
* İnsan sümüyü qranit kimi möhkəmdir. Sümüklər 9 ton yük qaldıra bilər.
* İnsan beyni kompüter olsaydı, saniyədə 38 katrilyon iş görə bilər. Dünyanın ən güclü kompüteri olan "BlueGene" bu rəqəmin 2/1000 görə bilir.
* Körpələrin əksəriyyəti mavi gözlü doğulur. Lakin ultrabənövşəyi işıqların təsirindən rəng dəyişir.
* Bir dırnağın tam böyüməsi üçün 6 ay lazımdır.
* Böyrəklərimizdə 2 milyona yaxın filtr var ki, onlar da hər dəqiqədə 1,3 litr qan təmizləyir.
* Hər bir insanın özünə xas qoxusu var. Bu qoxu ancaq əkizlərdə eyni ola bilər.
* Çox yuxu görmək yüksək İQ səviyyəsindən xəbər verir.
* Səhər yuxudan duranda 1 sm daha uzun oluruq. Bunun səbəbi onurğa qığırdaqlarımızın gün boyunca yığılmasıdır.

## Hər 40 saniyədən bir kimsə infarkt keçirir



**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, hər il dünyada təxminən 18 milyon insan ürək-damar xəstəliklərindən həyatını itirir. Ölüm hallarının böyük əksəriyyəti infarkt və insult nəticəsində baş verir.**

Ürəyə qan axınının qəfil dayanması ürək böhranına səbəb olur. Bu zaman ürək əzələsi zədələnə və ya ölə bilər. Müdaxilə gecikərsə, zərər qalıcı olur və ağır nəticələr doğura bilər. Statistikaya görə, infarkt nəticəsində ölümlərin yarısı simptomların başlamasından sonra ilk 3-4 saat ərzində baş verir.

ABŞ-də hər il 805 min insan infarkt keçirir. Onlardan 200 mini təkrar infarkt hallarına aiddir. Bu isə o deməkdir ki, hər 40 saniyədə bir nəfər ürək böhranı keçirir.

## İnanılmaz kəşf: bitkilər yalan danışır və qeybət edirlər

**Böyük Britaniya və Niderlanddan olan beynəlxalq alimlər qrupu belə qənaətə gəliblər ki, bitkilər öz mənfəətləri və sağ qalmaq üçün bir-birilərini aldada bilirlər. Tədqiqat "Proceedings of the National Academy of Sciences" (PNAS) elmi jurnalında dərc olunub. Bildirilib ki, bitkilər köklərini birləşdirən yeraltı göbələk sistemi olan mikorizal şəbəkə vasitəsilə əlaqə qururlar. Onlar öz qonşularını təhlükə barədə xəbərdar edirlər. Lakin bəzən yalançı təhlükə xəbərdarlıqları da ola bilər. Bu, canlı orqanizmləri yalançı təhlükəyə qarşı müdafiəni aktivləşdirmək üçün çoxlu resurs sərf etməyə məcbur edir.**

"Ola bilsin ki, bitkilər qeybət edən qonşular kimi sadəcə olaraq bir-birini dinləyirlər. Və ya mikorizal şəbəkəsindəki göbələklər karbohidrat mənbələrini qorumaq üçün yalançı hücum haqqında məlumat ötürürlər", - tədqiqatın həmmüəllifi Tobi Kirs bildirib.

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500